# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

25
APREL
2019-cu il

№ 74 (3972)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PEKİNDƏ GURULTULU «VAHİD ÇİN» VƏ «ƏRAZİCƏ BÜTÖV AZƏRBAYCAN» BƏYANATLARI SƏSLƏNDİ...

■ səh. 2 ■

*Prezident İlham Əliyevin səfər etdiyi Çinin dövlət başçısı Azərbaycanın bütövlüyünü birmənalı dəstəklədi*

## Paşinyandan zorən etiraf - «Rusiya ilə münasibətlər yaxşı deyil...»



■ səh. 9 ■

Manatın sabitliyinə Prezidentin və beynəlxalq ekspertlərin üst-üstə düşən iki baxışı... ■ səh. 10 ■

Ermənilər BMT-ni Azərbaycan əleyhinə təcavüz ortağına çevirə bildi... ■ səh. 6 ■

Paşinyan "Qarabağ klanı"nın daha bir iri fiqurunu "boğazladı"... ■ səh. 11 ■

Makronun uydurma "erməni genosidi"nə vurğunluğu Fransa dövlət elitasını parçaladı... ■ səh. 7 ■

Radikal Azərbaycan müxalifəti Trampın Qüds, Colan qərarlarına niyə susdu... ■ səh. 6 ■

Eldar Əzizov Bakının lift təsərrüfatında korrupsiya proseslərini gündəmə gətirdi - bir səs-küylü toyun söz-söhbəti yenidən qayıdır.... ■ səh. 12 ■

Pirşağı camaatı dənizə çirkab axıdanlara qarşı ayağa qalxdı ■ səh. 15 ■



**Ermənistan XİN-in Oqtay Əsədova cavab adı altında AB-ni şantaj cəhdi - hədəf Azərbaycanla sazişdir...** ■ səh. 5 ■

**İcra başçılarının «xalqa vicdanla xidmət» meyarına uyğunluğu aktual gündəm müzakirəsində...** ■ səh. 4 ■



**Yanmış «Diqlas»ın sahibi Araz adlı şəxsə qarşı icarədar sahibkarın 500 min dollarlıq iddiası...** ■ səh. 13 ■

■ səh. 8 ■
"Yurd"un viran qoyduğu Elçibəy yurdu və Əli Kərimliyə qalan tək "siyasi ekspertlik"...



■ səh. 4 ■
Milli Məclisdə xüsusi Qarabağ dinləmələri 18 ildən sonra - iqtidardan və müxalifətdən baxışlar...



■ səh. 5 ■
Azərbaycandan çıxarılmış məşhur alman fondlarının başqa adlarla qayıdışı, ya yeni mahiyyət...



■ səh. 11 ■
Paşinyanın Zelenskiyə Putinlə davranış öyrətməsinin pərdəarxası komik və ciddi mənaları...



■ səh. 15 ■
Azərbaycanda zorakılıq qurbanı uşaq və qadınlar üçün dövlət sığınacaqları yoxdur...



# Pekində gurultulu "Vahid Çin" və "Ərazicə bütöv Azərbaycan" bəyanatları səsləndi...

## *Prezident İlham Əliyevin səfər etdiyi Çinin dövlət başçısı Azərbaycanın bütövlüyünü birmənalı dəstəklədi*

**Pekində Azərbaycan Prezident İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Tzinpinin görüşü olub. Çin Xalq Respublikasının Sədri Si Tzinpin Prezident İlham Əliyevi qarşıladıqdan sonra dövlət başçıları birgə foto çəkdiriblər.**

Çin Xalq Respublikasının sədri Si Tzinpin deyib ki, Bakı ilə birlikdə ortaq səylərlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazırdır:

"Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır".

Prezident İlham Əliyev cavab çıxışında deyib:

Biz birgə səylərimizlə əməkdaşlığımızı irəliləydirik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik. Bu Forumun keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

Çin Xalq Respublikasının Sədri Si Tzinpin Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğulayaraq, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Trans-Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd edib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın "Vahid Çin" siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğulayıb.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Prezident İlham Əliyev Si Tzinpini ölkəmizə səfərə dəvət edib, dəvət məmnunluqla qəbul olunub.

Prezidentin başqa ikitərəfli görüşləri də olub. Belə ki, Azərbaycan Prezidenti Pekində "ZTE" Korporasiyasının sədri Li Zixue ilə



görüşüb. "ZTE" Korporasiyasının sədri rəhbərlik etdiyi şirkətin dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olduğunu bildirib. Çində və xaricdə çoxlu tərəfdaşlarının olduğunu deyən Li Zixue Azərbaycan bazarında da gözəl əməkdaşlıq nümunələrinin mövcudluğunu vurğulayıb və ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək istədiklərini bildirib.

Prezident İlham Əliyev bu əməkdaşlığın uğurlu olacağına ümid etdiyini bildirib. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının Azərbaycanda prioritet sahələrdən olduğunu deyən dövlət başçısı son illərdə bu sektorun inkişafı üçün xeyli işlərin görüldüyünü, bu sahəyə investisiyaların yatırıldığını, xarici tərəfdaşlarla əlaqələrin genişləndiyini deyib. Prezident İlham Əliyev "ZTE" Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Prezident Pekində "CETC International" Korporasiyasının baş direktoru Vu Mançinlə də görüşüb.

Görüşdə Vu Mançin "CETC International" Korporasiyasının Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olduğunu deyərək, bu sahədə uzun illərdir uğurla fəaliyyət göstərdiklərini bildirib. O, bu sahədə Azərbaycanla əməkdaşlıq qurduqlarını və bundan məmnun qaldıqlarını vurğulayaraq, əlaqələrin inkişaf etdiyini bildirib.

Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır. Dövlət başçısı artıq Çinin bir çox şirkətlərinin timsalında yaxşı tərəfdaşlığın yarandığını bildirib və Azərbaycanda xarici şirkətlər üçün geniş fəaliyyət sahəsinin olduğunu qeyd edib.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

www.baki-xeber.com

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

**Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.**

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Türkiyə mətbuatı da ermənilərin PKK terrorçuları ilə fəal əməkdaşlıq etdiyini aşkarladı...

Ermənilər PKK terrorçuları ilə fəal əməkdaşlıq edirlər. Bu barədə "Trend" Türkiyə mətbuatına istinadən məlumat verir. Bildirilir ki, 4 il əvvəl İraqın şimalında Livan ermənilərindən ibarət 200 nəfərlik xüsusi briqada yaradılıb.

Bu məlumatın Türkiyə Silahlı Qüvvələri tərəfindən İraqın şimalında və Türkiyənin cənub vilayətlərində saxlanan PKK terrorçularından alındığı deyilir.

Həmçinin qeyd olunur ki, bir sıra livanlı ermənilər, eləcə də briqadaya daxil olan digər PKK üzvləri əvvəllər Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan Ordusuna qarşı döyüşlərdə iştirak edib.



## Ermənistan XİN bəyanat verdi və növbəti "Qarabağ" tələsinə düşdü

***Azərbaycan XİN:** "Erməni tərəfinin bəyanatı münaqişədə məhz iki tərəfin mövcudluğunu növbəti dəfə sübut edir"*

**Erməni tərəfinin bəyanatı münaqişədə məhz iki tərəfin mövcudluğunu növbəti dəfə sübut edir. Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Leyla Abdullayeva erməni həmkarının bəyanatını şərh edərkən deyib.**



L.Abdullayeva bildirib: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin Avropa İttifaqı-Ermənistan sazişində necə əks olunmasının detallarına varmadan, mən yalnız onu söyləyə bilərəm ki, erməni tərəfinin bu bəyanatı münaqişədə məhz iki tərəfin, yəni Ermənistan və Azərbaycanın mövcudluğunu və heç bir "üçüncü tərəf"in olmaması barədə həqiqətin dəyişilməzliyini növbəti dəfə sübut edir". Qeyd edək ki, Ermənistan XİN-in mətbuat katibi öz şərhində Avropa İttifaqının (Aİ) Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı mövqeyinin Ermənistan-Avropa İttifaqı hərtərəfli və genişləndirilmiş tərəfdaşlığı haqqında sazişində aydın ifadə olunduğunu və orada digər prinsiplərlə yanaşı, öz müqəddəratını təyinetmə prinsipinə də istinad edildiyini deyib.

## Xamneyi ABŞ-ı hədələdi

*"Sanksiyalara baxmayaraq, neft ixracını davam etdirəcəyik"*

**İran tələb olunduğu qədər neft ixrac etməyə davam edəcək. "Trend"in məlumatına görə, bunu İranın ali lideri Əli Xamneyi öz "Twitter" səhifəsində yazıb.**

O bildirib ki, ABŞ İranın neft satışlarını boykot etmək cəhdləri heç nəyə gətirib çıxarmayacaq.

Ə.Xamneyi vurğulayıb ki, ABŞ-ın hərəkətləri cavabsız qalmayacaq: "Onlar ümid edir ki, İran neftin satışını dayandıra bilib. Amma bizim güclü xalqımız və hökumətimiz səylə işləsələr, blokadanı yarmaq olar".

# Mətbuat Şurası qəzet köşklərini araşdırdı və səyyar qəzet satışının bərpasına qərar verdi

## Səyyar satıcıların ayrı geyim forması olacaq

**Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib. Toplantını açan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov gündəlikdəki məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib. İclasda ilk olaraq Şuranın 2019-cu ilin yanvar-mart ayları ərzində gördüyü işlərlə bağlı məlumat dinlənilib. Bildirilib ki, Azərbaycan Mətbuat Şurasına hesabat müddətində 214 müraciət daxil olub.**

Onlardan 138-i media orqanlarından şikayətdir.

Şikayətlərin 124-ü Şuranın Katibliyində baxılıb. 98 şikayət katiblikdə həllini tapıb, digər 26 şikayət isə baxılmaq üçün Şikayətlər üzrə Komissiyaya təqdim olunub. Həmin şikayətlərin əsasında qərarlar çıxarılıb. 1 qəzetin adının yenidən Şuranın "qara siyahı"sına əlavə olunması barədə rəyə gəlinib və bununla bağlı materiallar "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasına yönləndirilib. Hesabat müddətində 10 media vasitəsinə xəbərdarlıq edilib ("Press.info, "Emtv.az", "Open.az, "İstixeber.info" və s.), 15-nə isə müvafiq tövsiyyələr verilib. 14 şikayət hazırda araşdirma mərhələsindədir. Hesabat qənaətbəxş qiymətləndirilib.

İclasda KİV-in Bakıda yayımının vəziyyəti ilə bağlı Mətbuat Şurasının keçirdiyi monitorinqin nəticələri müzakirə edilib. Monitorinqin konkret məqsədi Bakı şəhərində, həmçinin, şəhərətrafı kəndlərdə və qəsəbələrdə qəzet satışının vəziyyətini, bu sahənin problemlərini və onların nədən qaynaqlandığını öyrənmək, qəzet satışı üçün nəzərdə tutulmuş köşklərin fəaliyyətini araşdırmaq, ölkədə qəzet satışının yaxşılaşdırması məqsədilə təkliflər paketi hazırlamaq olub.

Monitorinq zamanı müəyyənləşdirilib ki, Bakı şəhərində və ətraf kənd-qəsəbələrdə 250 köşk (176-ı Bakının özündə olmaqla) fəaliyyətdədir. Onlarda qəzet satışı istənilən səviyyədə təşkil olunmur. Köşklər məhsulla təmin edilsələr də, bir çox satıcılar qəzetləri vitrinə düzmür, oxucu tələbatını qarşılamır, qəzetləri bağlama şəklində kənar yerdə saxlayırlar.

Satıcıların işlərinə səhlənkar yanaşmalarının da səbəbləri var. Köşklərə qoyulan icarə haqqı həddən artıq çoxdur. Nəticədə icarədarlar icarə haqqını çıxarmaq və qazanc götürmək üçün qəzet satışından daha çox digər məhsulların, o cümlədən siqaret, alkoqollu, energetik içkilər və s. satırlar. Vəziyyətə görə məsuliyyəti isə Bakı Şəhər İcra Hakimiyyəti daşıyır. İH "Köşkpress"lərin qəzet satışı üçün nəzərdə tutulduğu barədə icarədarları müntəzəm məlumatlandırmalı və qaydalara əməl etməyənlər üçün cəza metodları hazırlamalıdır.

Köşk başına verilən qəzetlərin sayı məsələsi də önəmlidir. "Əks-səda" firması redaksiyalarla bağladığı müqaviləyə əsasən hər köşkə satılıb-satılmamasından asılı olmayaraq 1 nüsxə qəzeti pulsuz çatdırır. Əlavə nüsxələrin satılmayacağı təqdirdə isə daşınma xərci nəzərdə tutulur. Elə redaksiyalar var ki, qəzetlərinin satışının zəif olduğu halda hər köşkdə bir neçə nüsxə qəzetin olmasını tələb edir. Firma bunu özünə yük sayır. Belə hallar da olur ki, qəzet satışının zəifliyi əsas götürülərək bəzi köşklərə müəyyən qəzetlər ümumiyyətlə çatdırılmır.

"Əks-səda"dan başqa firmaların fəaliyyətində də çatışmazlıqlar var. Ən böyük problem Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində fəaliyyət göstərən Poçt Daşıma Mərkəzinin rayonlara qəzet daşınması ilə bağlıdır. PDM müəyyən haqq qarşılığında qəzetlərin və firmaların abunələrini Azərbaycanın rayonlarına çatdırılmasını üzərinə öhdəlik kimi götürsə də, məlum olmayan səbəblərdən qəzetlər ünvanına vaxtında çatdırılmır, bəzənsə ümumiyyətlə çatdırılmır. Bu, abunəçilərdə, redaksiyalarda narazılıq doğurur. Onlar ziyana düşürlər. Belə hallar da olur ki, satıcılar qəzetləri oxuculara satmır, müəyyən məbləğ qarşılığında oxumalarına və geri qaytarmalarına şərait yaradır.

Monitorinq qrupu mövcud durumdan çıxmaq üçün müəyyən təkliflər də irəli sürür. Həmin təkliflər sırasında qəzet yayımı işinin tam müstəqil olması üçün tədbirlərin həyata keçirilməsini, bu xüsusda Bakı Şəhər İcra Hakimiyyətinin və digər dövlət qurumlarının prosesdə hər hansı şəkildə iştirakının aradan qaldırılmasını, müstəqil yayım firmalarına şəraitin yaradılmasını, Bakı bulvarında, parklarda, şəhərin mərkəzi küçələrində, bazarlarda və s. yerlərdə səyyar satışın (əldə yayımın) bərpasını, iri market







şəbəkələrində qəzet satışının təşkilini, Bakı Dəmiryol Vağzalında, Heydər Əliyev Hava Limanında, Bakı Beynəlxalq Avtovağzalında və digər bu kimi yerlərdə qəzet satışının bərpasını və təkmilləşdirilməsini, qəzet köşkləri üzrə icarə haqqı məsələsinin bazar qiymətlərinə və real imkanlara uyğun tənzimlənməsini, yayım firmaları üzərində köşklərdə çalışan işçiləri üçün təlimlərin təşkili öhdəliyinin müəyyənləşdirilməsini, həmçinin yayım firmalarının redaksiyalarla bağladıqları müqavilələrin vahid formasının hazırlanmasını və müqavilələrin bazar şərtlərinə uyğunlaşdırılmasını, səyyar qəzet satıcıları üçün vahid qaydaların və geyimin müəyyənləşdirilməsini, səyyar qəzet satıcılarının vergi ödəyicisi kimi qanunvericilikdə müəyyən olunmuş əlverişli qeydiyyatının həyata keçirilməsinin təmin olunmasını, onların sabit vergiyə cəlb edilmə istiqamətində işlərin aparılmasının zəruriliyinin vurğulanmasını göstərmək mümkündür. Təkliflərə eyni zamanda Bakı Metropoliteninin stansiyalarında qəzet satışının bərpası üçün tədbirlərin görülməsi, Bakı Metropoliteninin stansiyalarının çıxışlarında qəzet köşklərinin sayının artırılması da daxildir. İclasda bu kimi məsələlər ətrafında müzakirə aparılıb və irəli sürülmüş təkliflərin ölkə rəhbərliyinə çatdırılmasına dair müvafiq tapşırıqlar verilib.

MŞ İdarə Heyətinin iclasında Şuraya yeni üvlərin qəbulu da həyata keçirilib. Müzakirələrdən sonra "Azedu.az", "Yenixeber.org", "Baku News" (baku.news), "42-ci paralel.az", "Sozcu.info", "Denizxeber.az" xəbər portalları, "Region mediası" qəzeti, "Ustad" dərgisi, "Loqos", "Düyməcik", "Elmi iş" jurnalları, "ONN media" (onn.az) və "Elit" İnformasiya Agentlikləri Şuraya üzv qəbul edilib.

**İclasda Şikayətlər üzrə Komissiyanın qəbul etdiyi rəylər əsasında qərarlar da qəbul edilib. Bu baxımdan "Təzadlar" qəzetinin adının Şuranın "qara siyahı"sına qaytarılması, "Aztoday.az" saytının adının isə həmin siyahıya daxil edilməsi qərara alınıb. Komissiyanın digər rəyləri üzrə ümumilikdə 18 media orqanının "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın müxtəlif prinsiplərini pozmasına dair eyni sayda qərar qəbul edilib.**

# İcra başçılarının "xalqa vicdanla xidmət" meyarına uyğunluğu aktual gündəm müzakirəsində...

**"Bütün dövlət məmurları bilməlidirlər ki, onlar vətəndaşlara vicdanla xidmət etməlidirlər. Təyin edilmiş hər bir icra başçısının qarşısına qoyduğum birinci vəzifə bundan ibarətdir". Bunu Prezident İlham Əliyev Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edərkən sakinlərlə görüşündə deyib.**

*"Elələri var ki, həqiqətən də çalışır və rayonda əhaliyə xidmət edir"*

**Rəsul Cahangirli:** *"Heç də bütün icra başçılarının öz işinə vicdanla yanaşdığını demək mümkün deyil"*



Ölkə başçısının sözlərinə görə, bürokratik əngəllər aradan qaldırılmalı, biznes qurmaq istəyənin qarşısında süni maneələr qoyulmamalıdır. Əsas odur ki, vətəndaşları narahat edən məsələlər öz həllini tapsın: "Hər yerdə, hər bir dövlət məmuru, icra başçısı, bələdiyyə sədri, hər bir dövlət təşkilatında çalışan məmur vətəndaşlara xidmət etməlidir. Mən bunu dəfələrlə demişəm. Əfsuslar olsun ki, hər yerdə belə deyil, elə hallar var ki, vətəndaşları incidirlər, onların haqları tapdalanır, onların problemlərinə biganə yanaşılır. Bilirsiniz ki, mən vətəndaşlarla müntəzəm təmasda oluram. Mən vətəndaşlardan həm problemləri, həm də müsbət tərəfləri eşidirəm. Ona görə hər bir dövlət məmuru bilməlidir ki, onun başlıca vəzifəsi vətəndaşlara xidmət etməkdir və mənim də tələbim bundan ibarətdir" Prezidentin fikrincə, buna nail olmaq üçün çox ciddi ictimai nəzarət olmalıdır: "Ona görə insanları narahat edən məsələlər, harada ki, nöqsanlar, çatışmazlıqlar var, onlar deyilməlidir. Onlar müraciətdə öz əksini tapmalıdır ki, biz bunları həll edək. Əminəm ki, belə də olacaq. Bütün dövlət məmurları bilməlidirlər ki, onlar vətəndaşlara vicdanla xidmət etməlidirlər. Təyin edilmiş hər bir icra başçısının qarşısına qoyduğum birinci vəzifə bundan ibarətdir".

Həqiqətən də bu məsələdə icra başçılarının üzərinə böyük məsuliyyət düşür. İcra başçıları vicdanla çalışsa, o zaman rayonlarda cəmiyyəti narahat edən problemlər də az olacaq. Daha operativ şəkildə problemlər həll ediləcək. Ümumilikdə, Azərbaycanda bütün icra başçılarının xalqa vicdanla xidmət etdiyini söyləmək mümkündürmü?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli buna bir neçə aspektdən yanaşdı:** "Heç də bütün icra başçılarının xalqa vicdanla xidmət etdiyini demək mümkün deyil. Elə icra başçıları var ki, həqiqətən də çalışır və rayonda əhaliyə xidmət edir. Nə mümkündürsə, onu edirlər. Çalışırlar ki, rayonda yaranan sosial-iqtisadi problemlər öz həllini tapsın. İstəmirlər ki, bu səbəbdən rayonda sosial narazılıq yaransın. Şikayətlərə daha operativ baxırlar. Nəzərə almaq lazımdır ki, hansısa sosial problemlər həll edilməyəndə bunlar üst-üstə yığılır. Bu da son nəticədə həmin rayonda narazılığa yol açır. Bu səbəbdən işinə məsuliyyətli yanaşan icra başçıları çalışırlar Prezidentin onlara göstərdiyi etimadı doğrultsunlar. Ancaq bunu hamıya şamil etmək mümkün deyil. Yəni heç də bütün icra başçılarının öz işinə vicdanla yanaşdığını demək doğru olmaz. Bu gün elə icra başçıları var ki, ölkə başçısının onlara göstərdikləri etimadı doğrultmurlar. Vəzifə səlahiyyətlərindən sui-istifadə edirlər. İnsanların problemlərinin həllinə laqeyd yanaşırlar və yaxud da bunlara az diqqət göstərirlər. Belə hallar da az deyil. Dəfələrlə müxtəlif mətbuat orqanlarında vətəndaşların şikayətləri ilə üzləşirik. Bir sıra hallarda bu şikayətlərin kökündə icra başçılarının yaxşı işləməməsi dayanır. Hansı ki, rayona rəhbərlik edən icra başçısı üzərinə düşən vəzifəni yerinə yetirsə, problemlər çoxalmaz. Ancaq düşünmək ki, icra başçısı rayondakı bütün problemləri həll edə bilər, bu da doğru yanaşma olmaz. Ancaq, hər halda, icra başçısı işini elə qurmalıdır ki, yaranan problemlər öz həllini tapsın. Ona görə də cəmiyyətə vicdanla xidmət etməlidirlər. Ümumiyyətlə, vicdanla işləmək hər bir məmurun borcudur".

*Vidadi ORDAHALLI*

# Milli Məclisdə xüsusi Qarabağ dinləmələri 18 ildən sonra - iqtidardan və müxalifətdən baxışlar...

**Dağlıq Qarabağ mövzusuna yanaşmada, demək olar ki, Azərbaycan iqtidarı ilə müxalifəti arasında prinsipial fikir ayrılığı yoxdur. Ancaq buna baxmayaraq, həssas olan bu mövzu ətrafında bəzi qurumların fərqli məkanlarda daim ciddi müzakirələr apardığının şahidi oluruq. Bu, əslində, normaldır.**




**Fəzail Ağamalı:** *"Onda yığışmalıyıq ki, həqiqətən buna ehtiyac olsun"*

**Akif Nağı:** *"Belə bir müzakirənin keçirilməsinin çox böyük faydası ola bilər"*





Hətta bu adla çağırılan mitinqlərdə də görürsən ki, səslənən şüarlarla hakimiyyətin yürütdüyü Qarabağ siyasətinin bütün istiqamətləri üst-üstə düşür. Təsadüfi deyil ki, cəmiyyətdə tez-tez bu mövzu ilə bağlı müxtəlif təkliflər səslənir. Məsələn, deyilir ki, dünya birliyinə ciddi mesaj vermək üçün iqtidarlı və müxalifətli birlikdə möhtəşəm milyonluq mitinq keçirmək lazımdır. Bu təkliflər sırasında parlamentdə bütün fəal partiyaların və ziyalıların iştirakı ilə Qarabağ müzakirələrinin keçirilməsinin zəruriliyi də vurğulanır. Qeyd edək ki, belə bir müzakirə sonuncu dəfə 2001-ci ilin fevral ayında keçirilib. Parlamentin bu formatda müzakirə keçirməsinə münasibət necədir?

**Millət vəkili Fəzail Ağamalı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hələlik belə bir müzakirənin keçirilməsinə zərurət görmür:** "Baxaq görək, Paşinyan deyilən diletant hara qədər gəlib çıxa biləcək? Hər gün biri digərini təkzib edən açıqlamalar verir. Bundan əlavə, Azərbaycan Avropa İttifaqı ilə mühüm bir saziş imzalamaq ərəfəsindədir. Paşinyan bundan istifadə edib Azərbaycana qarşı təxribatlarını davam etdirir. Çalışır ki, həmin sazişin imzalanması təxirə salınsın. Təəssüf ki, bu kampaniyaya bəzi antimilli ünsürlər də qoşulublar. Yəni Qarabağla bağlı vəziyyət heç də normal deyil. Çox qaranlıq və kifayət qədər müəmmalı vəziyyət var. Tərəfləri gah Rusiya, gah da ABŞ çağırır, məsləhətləşmə aparmaq istəyir. Rusiyadakı görüşdən sonra Kazan formulu, Lavrov planı ətrafında müzakirələr gedir. Baxaq görək, bu məsələlərin axırı necə olur. Bu mürəkkəb situasiyaya aydınlıq gətirmədən iqtidarlı-müxalifətli yığışıb məsələni müzakirə etmək nəyə lazımdır? Onda yığışmalıyıq ki, həqiqətən buna ehtiyac olsun. Bu gün ölkə Prezidenti Dağlıq Qarabağ və digər mövzularda Azərbaycanın dövlət və milli maraqlarını yüksək səviyyədə təmsil edir. Bu yöndə bütün enerjisini, bacarığını ortaya qoyur. Bu baxımdan da hələlik belə formatda bir müzakirəyə zərurət görmürəm. Lazımi situasiya yetişəndə bu reallaşacaq".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı isə hesab edir ki, belə müzakirəyə mütləq mənada ehtiyac var:** "Belə bir təkliflə biz də, təşkilat olaraq, Milli Məclisə müraciət etmişik. Ən azından, bunun niyə baş tutmadığı barədə bizə məlumat verilməlidir. 2001-ci ildə məhz bu səpkidə görüş oldu. Bütün ictimaiyyət nümayəndələrinin fikri dinlənildi. Hətta həmin vaxt ölkə rəhbəri təklif etdi ki, kimin nə təklifi varsa versin. Bu belə olmalıdır. Mən bilirəm ki, belə bir müzakirələrin aparılmasını təklif edən millət vəkilləri var. Yəqin ki, hansısa anlaşılmazlıq var. Ən azından, bunun səbəbi bizə izah edilməlidir. Belə bir müzakirənin keçirilməsinin çox böyük faydası ola bilər. Har halda, cəmiyyət məlumatlanar ki, Dağlıq Qarabağla bağlı danışıqların gedişində hansı məsələlər müzakirə edilir. Hazırda bununla bağlı cəmiyyətdə ciddi bir narahatlıq var. Bu qədər vaxt keçib, danışıqlar da nəticə vermir. Buna görə də mövzunun parlamentdə müzakirə edilməsinin tam zamanıdır".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistan XİN-in Oqtay Əsədova cavab adı altında AB-ni şantaj cəhdi - hədəf Azərbaycanla sazişdir...

**Ermənistan Xarici İşlər Nazirliyi Azərbaycan Milli Məclisinin spikeri Oqtay Əsədovun ölkəmizlə Avropa İttifaqı arasında imzalanması nəzərdə tutulan sazişlə bağlı səsləndirdiyi fikirlərə münasibət açıqlayıb. Xüsusilə də spikerin məlum sazişdə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı müddəanın olmasını bildirməsi Ermənistan diplomatiyasını bu məsələyə şərh verməyə vadar edib.**




*"Azərbaycanın sərhəd toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinin bir daha vurğulanması Avropa İttifaqının strateji prinsiplərinə cavab verir"*

## *Elşən Mustafayev: "Ermənistanın belə aqressiv və irrasional mövqeyi, xüsusilə də isterik tələbləri Avropa İttifaqına təsir edə bilməz"*

Əslində isə Ermənistan diplomatiyasının bu vurnuxmasının kökündə Avropa Birliyini şantaj etmək məqsədləri dayanır. Bunu qurum adından açıqlama verən Anna Naqdalyanın fikirlərindən sezmək mümkündür. Naqdalyan bəyan edir ki, bu məsələdə Avropa Birliyinin mövqeyi bəllidir və Ermənistanla imzalanan "çərçivə sazişi"ndə öz əksini tapıb: "Həmin sənəddə Dağlıq Qarabağ probleminin nizama salınması səyləri arasında xalqların öz müqəddəratını təyin etmə hüququ xüsusilə vurğulanır. Bu mövqe dəfələrlə ən yüksək çinli Avropa rəhbərlərinin fikirlərində də qeyd edilib".

Çox maraqlıdır ki, Naqdalyan sonra açıq şantaj tonuna keçərək bildirir ki, Ermənistan bu məsələdə heç bir ikili standartlı yanaşmanı qəbul etmir. Burdan açıq görünür ki, bütün bu səylər Avropanı Azərbaycanla imzalanacaq sazişə ərazi bütövlüyü müddəasını salmamağa vadar etməyə hesablanıb. Hətta Ermənistan XİN-i dolayısı ilə nəzərə çatdırır ki, sənəddə Azərbaycanın ərazi bütövlüyü məsələsinə vurğu olarsa, AI-nin mövqeyi ikili standart kimi yozulacaq.

Ermənistanın bu şantajları Avropa İttifaqının Azərbaycanla bağlı mövqeyini dəyişməyə qadirdirmi?

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, sözügedən sazişlə bağlı əsas məsələlər həll edilib:** "Azərbaycan rəsmisi Elmar Məmmədyarov da dedi ki, cəmi 10 faiz məsələ ətrafında müzakirələr gedir. Bununla o qənaətə gəlmək olar ki, hazırda ikitərəfli saziş üzrə danışıqların yekun, həlledici mərhələsinə qədəm qoyulub. Rəsmi açıqlanmasa da, məlumdur ki, sazişdə Avropa İttifaqının və Azərbaycanın maraqlarını əks etdirən müddəalar çoxdur.

Rəsmi Bakı sazişdə Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının mütləq şəkildə əks olunmasını istəyir. Avropa İttifaqı da indiyədək qəbul etdiyi sənədlərdə, verdiyi açıqlamalarda, imzaladığı bütün sazişlərdə bu şərtlərə şəksiz əməl edib".

Partiya funksionerinin sözlərinə görə, məqsəd sazişdə qarşılıqlı anlaşmanın şübhə doğurmadığı bu məqamın əks olunmasıdır: "Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı prinsipləri əsasında nizamlanmasının tərəfdarıdır".

Elşən Mustafeyev deyir ki, Avropa İttifaqı bu məqamı çoxdan qəbul edib və rəsmi Bakını dəstəkləyir: "Sazişdə həmin müddəanın əks olunmasına etiraz edəcək yeganə ölkə Ermənistandır. Rəsmi İrəvanın bəhs etdiyimiz müddəaya qarşı çıxır, yenə də absurd "millətin öz müqəddəratını təyin etmə hüququ" tezisi ilə çıxış edərək, Dağlıq Qarabağdakı separatçı rejimin, daha doğrusu, terrorçu xuntanın "müstəqilliyinin tanınması"nı istəyir. Bunu biz əvvəlcədən bilirdik. Düşünmürəm ki, Ermənistanın belə aqressiv və irrasional mövqeyi, xüsusilə də isterik tələbləri Avropa İttifaqına təsir etsin, Brüsseli öz taktikasından çəkindirə biləcək gücə malik olsun. Bundan başqa, Azərbaycanın sərhəd toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinin bir daha vurğulanması Avropa İttifaqının strateji prinsiplərinə cavab verir.

Avropada hazırda bir neçə ölkədə separatizmin alovlandığını, rəsmi Brüsselin analoji sazişlərdə Gürcüstan və Ukraynanın ərazi bütövlüyünü tanıdığını xatırlasaq, prosedur çətin olmayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycandan çıxarılmış məşhur alman fondlarının başqa adlarla qayıdışı, ya yeni mahiyyət...

**Almaniyanın Azərbaycandakı səfiri Mixael Kindsqrab bildirib ki, onlar Fridrix Nauman Fondu və digər Almaniya siyasi institutlarının geri qayıtmasını istəyirlər. Səfir illər öncə Azərbaycanı tərk etməli olmuş Fridrix Nauman Fondu və digər Almaniya siyasi institutlarının geri qayıtması üçün Azərbaycan rəsmiləri ilə danışıqlar aparıldığını bildirib.**




*"Ölkənin qanunlarına əməl etmək və bu çərçivədə fəaliyyət göstərmək hər bir xarici təşkilatın borcudur"*

## *Məhərrəm Zülfüqarlı: "Yeni şərtlər daxilində Almaniya fondları Azərbaycanda fəaliyyət göstərə bilərlər"*

Onun sözlərinə görə, alman siyasi fondları yenidən Azərbaycanda öz fəaliyyətlərini bərpa etmək istəyirlər: "Bu məsələ ilə bağlı hazırda Azərbaycan tərəfi ilə danışıqlar aparılır və biz çox optimistik ki, müsbət nəticələr əldə olunacaq".

Səfir onu da qeyd edib ki, Almaniya Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanmasını dəstəkləyir.

Məlumat üçün qeyd edək ki, insan azadlıqları və demokratiyanı dəstəkləyən Fridrix Nauman Fondu 2015-ci ildə Azərbaycanı tərk edib. Sözügedən fond 19 il Azərbaycanda fəaliyyət göstərib. Fridrix Nauman Fondundan başqa da alman siyasi fondları Azərbaycanda fəaliyyət göstəriblər. 2014-cü ildə Azərbaycanda "Qrant haqqında" Qanuna edilən dəyişikliklərdən sonra bir sıra xarici QHT-lər, o cümlədən Almaniya fondları ölkəni tərk ediblər.

Qeyri-rəsmi məlumatlara görə isə, sözügedən fondlar ölkənin daxili işlərinə müdaxilə ediblər. Bu amil də onların öz fəaliyyətlərini dayandırmasına gətirib çıxarıb. Qanuna görə, bu cür fondlar digər ölkə ərazisində fəaliyyət göstərəndə həmin dövlətin daxili işinə müdaxilə etməsi yolverilməzdir. Bu bütün dünyada belədir. Ancaq bəzən alman siyasi fondları buna əməl etmirlər. Dünyada öz fəaliyyətlərini daha çox Almaniyanın iqtisadi maraqlarını dəstəkləməyə yönəldirlər. Hətta lazım gələrsə, hər hansı bir ölkəyə qarşı qara piardan tutmuş, görüntü xarakterli demokratik tələblərədək müxtəlif vasitələrdən istifadə olunur.

Onu da qeyd edək ki, Almaniyada bu fondlar siyasi partiyalarla birbaşa bağlıdır. Bundestaqda bir çağırışdan çox təmsil olunan hər bir partiyanın ictimai-siyasi fond yaratmaq hüququ var. Alman cəmiyyətində nüfuz sahibi olan hər bir partiyaya yaxın siyasi fond fəaliyyət göstərir. Belə ki, Konrad Adenauer Fondu Xristian-Demokrat İttifaqına, Fridrix Ebert Fondu Sosial-Demokrat Partiyasına, Henrix Böll Fondu Yaşıllar Partiyasına, Fridrix Nauman Fondu Azad Demokrat Partiyasına, Hans Zaydel Fondu Xristian-Sosialist İttifaqına, Roza Lüksemburq Fondu Sol Partiyaya yaxınlığı ilə tanınır. Almaniyanın hazırkı kansleri Anqela Merkel Konrad Adenauer Fondunun Direktorlar Şurasının üzvüdür.

Bütün bu deyilənlərin fonunda, Almaniya siyasi fondları yenidən Azərbaycanda fəaliyyət göstərmək istəyirlərsə, onların qarşısında ölkənin daxili işlərinə müdaxilə etməmək barədə şərt qoyulmalıdır. Yalnız o halda onların fəaliyyətinə icazə verilməsi daha məqsədəuyğun olar. O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, ölkənin daxili işlərinə müdaxilə etməmək şərtilə, Almaniya fondları Azərbaycanda fəaliyyət göstərə bilərlər:** "Almaniya fondlarının Azərbaycanda keçirdiyi tədbirlərdə dəfələrlə iştirak etmişəm. Deməyim odur ki, 2015-ci ilə qədər bir sıra alman fondları Azərbaycanda fəaliyyət göstərib. Sözügedən fondlar Azərbaycanda demokratikləşmə yolunda seminarlar, regionlarda tədbirlər keçirib əhalinin maarifləndirilməsində müəyyən rol oynayıblar. Ancaq bəzi hallarda və müəyyən səbəblərdən bu fondlar ölkənin daxili işlərinə müdaxilə də ediblər. Bunu danmaq olmaz. Məhz ölkənin daxili işlərinə müdaxilə etdiklərinə görə buranı tərk etdilər. Hesab edirəm ki, xarici fondlar bu kimi amilləri nəzərə almalıdırlar. Ölkənin qanunlarına əməl etmək və bu çərçivədə fəaliyyət göstərmək hər bir xarici təşkilatın borcudur. Bu baxımdan hesab edirəm ki, yeni şərtlər daxilində Almaniya fondları Azərbaycanda fəaliyyət göstərə bilərlər. Yeni ölkənin daxili işlərinə müdaxilə etməmək şərtilə. Yalnız bu şərtlər daxilində onların fəaliyyəti ölkə üçün faydalı ola bilər. Onu da qeyd edim ki, sözügedən fondlar Azərbaycandan gedirsə, ölkə vətəndaşları bundan faydalana bilmir. Nəticədə Gürcüstan və Ermənistan alman fondlarından bəhrələnirlər. Digər tərəfdən, xarici fondlardan çox ehtiyat etmək lazım deyil. Ona görə ki, Azərbaycanın səlahiyyətli qurumları kifayət qədər onların işinə nəzarət edə bilirlər. Müəyyən şərtlərlə onların Azərbaycana qayıtması müsbətdir".

***Vidadi ORDAHALLI***

# Ermənilər BMT-ni Azərbaycan əleyhinə təcavüz ortağına çevirə bildi...

**Dünyanın ən nüfuzlu və mötəbər təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı (BMT) ciddi yanlışlığa yol verib. Qurumun müəyyənləşdirdiyi prosedura görə, BMT üzvü olan hər bir ölkənin illik hesabatını qəbul edir. Lakin təəssüf ki, budəfəki hesabatda Ermənistan təxribata yol verib, qondarma "Dağlıq Qarabağ Respublikası"nın "hesabatının" BMT-nin saytında yerləşdirilməsinə nail olub.**




Məlum "sənəd" "rəsmi hesabat" statusunda 6 dildə yayılıb. Hər halda, bu, Ermənistanın təxribatı olsa da, buna BMT tərəfindən şərait yaradılıb. Necə ola bilər ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnamənin müəllifi olan BMT "Artsax" adı ilə hansısa "hesabatı" qəbul edir?

Artıq Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Ermənistanın öz illik hesabatı ilə yanaşı, ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin də "hesabatını" BMT-nin İnsan Hüquqları Şurasına təqdim etdiyi və bu sənədlərin BMT rəsmi səhifəsində yayıldığı ilə bağlı məlumatlara münasibət bildirib. L.Abdullayeva deyib ki, burada BMT-nin İnsan Hüquqları Şurasına təqdim edilmiş illik hesabatdan söhbət gedə bilməz. Onun sözlərinə görə, mətbuatda məlumatı təqdim edərkən onun dəqiqliyinin yoxlanılması vacibdir:

"Ermənistan KİV-in bir çox hallarda müəyyən mövzuları öz maraqlarına cavab verəcək şəkildə təqdim etdiyinin dəfələrlə şahidi oluruq. Birinci hal deyil ki, Ermənistan tərəfi öz məktublarına Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz separatçı rejimin kağızlarını əlavə edir. Ermənistan tərəfinin BMT, eləcə də ATƏT çərçivəsində üzvlük hüquqlarından sui-istifadə edərək qanunsuz rejimin kağızlarını öz məktublarının əlavəsi kimi yaymaq təcrübəsinə cavab olaraq, təşkilatlar yayılan bu sənədlərin hər hansı bir şəkildə təşkilatın mövqeyini əks etdirmədiyini bildirirlər. Sənədə diqqətlə baxsanız burada sənədin əlavəsinin yayılmasının BMT Katibliyinin onun mahiyyəti üzrə hər hansı mövqe bildirməsi demək olmadığı aydın şəkildə yazılır".

BMT-də Ermənistan nümayəndəliyi tərəfindən yayılan sənədə gəldikdə isə, L.Abdullayeva bildirib ki, bu günədək Ermənistanın bu kimi təxribatlarına cavab olaraq ölkəmizin mövqeyini əks etdirən və yayılmış kağızların heç bir qüvvəyə malik olmadığını bildirən etiraz məktubları BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədləri kimi dərc olunaraq yayılıb: "Konkret qeyd etdiyiniz hal ilə bağlı ölkəmizin Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi tərəfindən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının İnsan Hüquqları Müqavilələri Bölməsinin rəhbəri ilə görüş keçirilmiş və Ermənistanın Cenevrədəki Daimi Nümayəndəliyi tərəfindən göndərilmiş sənədə əlavə olumuş kağızların heç bir hüquqi əsasının olmadığı və belə cəhdlərin qəbuledilməz olduğu barədə etiraz bildirilmişdir".

İstənilən halda, BMT kimi mötəbər qurum bu cür yanlışlıqlara görə məsuliyyət daşıyır. Qurumun kifayət qədər ciddi mahiyyətə malik olan məsələyə belə səhlənkar münasibəti təsadüfdür, yoxsa...

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu mövzuya bir qədər obyektiv və kompleks şəkildə yanaşmaq lazımdır: "Birincisi, həmin "hesabat" rəsmi xarakter daşımır və BMT-nin mövqeyini əks etdirmir. Yayılan "sənəd"lə tanış olsanız görərsiniz ki, orada tanınmamış qurumun "hesabatı" olduğu qeyd edilir. Yəni BMT öz prosedurlarına əsaslanaraq həmin sənədi dərc edib. Bu heç də Azərbaycana olan qərəzdən irəli gəlmir. Qurumun saytına baxsanız görərsiniz ki, başqa tanınmayan qurumların da müraciətləri yayılır. Bu birinci dəfə deyil ki, belə hallar baş verir. Biz maraqlanmışıq, BMT belə hallarla bağlı qadağa tətbiq edə bilmədiyini deyir. Belə olan halda, biz də adekvat cavablar verməliyik. Rəsmi etirazla yanaşı, həm də elə BMT-nin özünün müəyyənləşdirdiyi prosedurlara uyğun şəkildə mübarizə aparmalıyıq. Nəyə görə bizim Dağlıq Qarabağın Azərbaycan İcması adlı qurum məhz həmin səhifədə öz hesabatını dərc etmir? Heç bir halda, BMT həmin sənədin yayılmasına qarşı çıxmaz. Əgər dərc eləməsə, onda bizim deyiləsi sözümüz daha çox olar. Elə qaydalar var ki, biz onlara mütləq əmək etməliyik. Artıq belə hal son bir ildə üçüncü dəfədir baş verir. Mən öz hesabatlarımda bunu qeyd etmişəm. Bir qədər əvvəl Sərsəng su anbarı ilə bağlı müraciət etmişdilər. BMT ona edilən istənilən sənədi yaymağı öz hüququ hesab edirsə və bunun qadağan olunmasını mümkün saymırsa, onda biz elə həmin təşkilatın saytında impulsiv cavablar verməliyik".

Politoloqun sözlərinə görə, biz onların yazdığından 10 qat artıq gücdə olan bir sənədi yerləşdirməliyik: "Bunu mən öz adımdan edə bilmərəm, Dağlıq Qarabağın Azərbaycanlı İcması etməlidir. Özü də hər vaxt erməni etdi, biz cavab verməməliyik. Bir çox məsələdə onları qabaqlamalıyıq. Sizi əmin edirəm ki, ermənilər görsə ki, bizim icma BMT-nin saytında fəallıq göstərir, qaçıb oradan gedəcəklər. Etirazdan çox, əməli işə keçməliyik. Qoy onlar daha çox bizim etdiklərimizə etiraz etsinlər. Bir daha xatırladıram ki, həmin "sənəddə" BMT-nin heç bir mövqeyi yoxdur. Ermənilər bunu BMT-nin bəzi qoşulmuş funksiyalarından yararlanaraq edirlər. "Sənədin" orada yerləşməsi BMT-nin onları dəstəkləməsi anlamına gəlmir. Yenə deyirəm, BMT bu məsələdə bir sənədi yayıb, digərini yaymasa, onda bizə qərəzli olduğunu ortaya qoymuş olar. Həmin "sənəddə" Dağlıq Qarabağdakı qondarma qurumu ayrıca "respublika" kimi təqdim etsəydi, bu olardı qərəz. Biz görürük ki, harda Dağlıq Qarabağ azərbaycanlıları irəliləyir, fəallıq göstərir, ermənilər həmin beynəlxalq təşkilatdan qaçırlar. Elə prosedurlar var ki, biz onu qadağan etmək gücündə deyilik. Ancaq bu o demək deyil ki, ermənilər nəsə etməlidir, biz cavab verməliyik. Qoy bizim icma bir sənədi yazıb yapışdırsın ora, görün sonrası nə olur? Əminəm ki, nəticə müsbət olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Radikal Azərbaycan müxalifəti Trampın Qüds, Colan qərarlarına niyə susdu...

**Donald Tramp ABŞ Prezidenti seçiləndən sonra qəbul etdiyi bəzi qərarlar dünyada birmənalı qarşılanmadı. Onun bir sıra qərarlarına, atdığı addımlara dünya ictimaiyyəti etiraz etdi.**

*"Trampın pis işini də yaxşı görmək və onun ünvanına heç bir tənqid səsləndirməmək bunların adətidir"*

***Razi Nurullayev:*** *"Çünki radikal müxalifət hələ də Birləşmiş Ştatları özləri üçün bir xilaskar kimi görür"*

Trampın ilk belə qərarı İranla bağlı oldu. O, 6 aparıcı dövlətin imzaladığı İranın nüvə proqramına dair sazişdən ABŞ-ın birtərəfli qaydada çıxmasına qərar verdi. Daha sonra ABŞ Prezidenti Fələstinlə bağlı beynəlxalq sazişlərə tam zidd olaraq Qüdsü (Yerusəlimi) İsrailin paytaxtı kimi tanıyaraq, Birləşmiş Ştatlar səfirliyinin ora köçürülməsinə dair qərar verdi. Bu ilin martında isə Tramp 1967-ci ildən İsrailin işğal altında saxladığı, Suriyaya məxsus olan Colan təpələrini İsrail ərazisi kimi tanımaq barədə sənəd imzalayıb.

Yeri gəlmişkən onu da qeyd edək ki, ABŞ Prezidenti 2014-cü ildə Krımın ilhaqı ilə bağlı Rusiyaya qarşı bir sıra sanksiyalar imzalayıb. Ancaq 25 ildən çoxdur Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistanla bağlı hər hansı sanksiya qəbul olunmayıb. Tramp bununla bağlı təşəbbüs belə qaldırmayıb.

Məsələnin maraqlı tərəfi odur ki, yuxarıda sadalanan



məsələlərə Azərbaycandakı radikal müxalifət təmsilçiləri heç vaxt etiraz etməyiblər. Yəni Milli Şura, AXCP və digər radikal müxalifət təmsilçiləri hansısa bəyanat səviyyəsində, tədbir çərçivəsində Trampa etiraz etməyiblər. Adətən maraqlarına uyğun məsələlərdə fəallaşan radikal müxalifət düşərgəsi görürsən ki, palaz-palaz bəyanatlar verir. Müxtəlif tədbirlər keçirir, adi bir məsələni şişirdib hay-küy salırlar. Ancaq Trampın dünya ictimaiyyəti tərəfindən qəbul edilməyən qərarlarına, nədənsə, bir dəfə də olsun etiraz etməyiblər. Ən azından, Krımla bağlı məsələdə sanksiyalar qəbul edildiyi halda, Qarabağla bağlı analoji yanaşmanın olmamasına etiraz etmək olardı. Ancaq bu məsələdə də radikal düşərgə ABŞ-a etiraz etməyi özünə rəva görmədi. Bütün bunlara hansısa reaksiya yoxdur. Maraqlıdır, bunun səbəbi nədir?

**Məsələyə münasibət bildirən digər AXCP sədri Razi Nurullayev bunu radikal müxalifət təmsilçilərinin konyuktur maraqlardan çıxış etmələri ilə əlaqələndirdi:** "Əvvəla Dağlıq Qarabağla bağlı məsələdə müxalifət və iqtidar söhbəti olmamalıdır. Dağlıq Qarabağla bağlı hansısa ikili standart siyasəti olanda, düşərgədən asılı olmayaraq, ölkədəki siyasi qüvvələr vahid mövqe ortaya qoymalıdırlar. Əfsuslar olsun ki, radikal müxalifətin timsalında biz bunu görmürük. Həqiqətən də şahidi olmamışıq ki, radikal müxalifət düşərgəsi, orada təmsil olunan partiyalar ABŞ-a hansısa etiraz etsinlər. ABŞ Prezidentinin Fələstin və Colan təpələri ilə bağlı qərarları beynəlxalq hüquqa zidd idi. Bu qərarlar münaqişənin həllinə kömək etmədi. Əksinə, münaqişəni daha da alovlandırdı. Təbii, burada haqlı olaraq ortaya sual çıxır ki, nəyə görə ABŞ Minsk Qrupunun həmsədri ola-ola İsraillə bağlı bu cür mövqe sərgiləyə bilir, amma BMT çərçivəsində Dağlıq Qarabağın Azərbaycan ərazisi kimi tanınmasına baxmayaraq, bənzər mövqe ortada yoxdur. Bu baxımdan dünyada ədalət prinsipi çoxdan pozulub və bunu radikal müxalifət təmsilçiləri də yaxşı bilirlər. Sadəcə, radikal müxalifət üçün sərf edən bir səbəb var. O da ABŞ-la münasibətləri korlamamaq, onları tənqid etməməkdir. Trampın pis işini də yaxşı görmək və onun ünvanına heç bir tənqid səsləndirməmək bunların adətidir. Çünki radikal müxalifət hələ də Birləşmiş Ştatları özləri üçün bir xilaskar kimi görür. O üzdən, Trampa müqəddəs xilaskar kimi baxırlar. Hesab edirlər ki, Qərb gəlib Azərbaycanda dəyişiklik edə bilər. Nəticədə guya radikal qüvvələr hakimiyyətə gələcəklər. Təbii ki, bu cür yanaşma doğru deyil və Azərbaycan xalqının maraqlarına ziddir. Ölkədə hansısa dəyişiklik olarsa, bunu xalq etməlidir. Bu da qanuni seçki yolu ilə olmalıdır. Hakimiyyət dəyişikliyi qanunlar çərçivəsində olmalıdır. Xarici qüvvələrin təsiri ilə hansısa dəyişiklik ölkəni xaosa sürükləyə bilər".

***Vidadi ORDAHALLI***

# Makronun uydurma "erməni genosidi"nə vurğunluğu Fransa dövlət elitasını parçaladı...

**Bir müddət əvvəl Fransa Prezidenti Emmanuel Makron aprelin 24-nü ölkədə qondarma "erməni soyqırımı qurbanlarının" xatirəsi günü elan edib və bununla bağlı rəsmi qərar qəbul edib. Fransa Prezidentinin bu bədnam qərarı nəinki Azərbaycanda və Türkiyədə, eləcə də Fransanın özündə narazılıqla qarşılanmaqdadır. Artıq fransalı deputatlar Makronun qondarma "erməni soyqırımı" ilə bağlı qərarına etiraz edirlər.**



*Fərəc Quliyev: "Fransa parlamentinin deputatlarının Makronun qərarına etiraz etməsi o deməkdir ki, hələ də deputatlar arasında sağlam düşünənlər, hadisələrə real yanaşanlar var"*

*Elçin Mirzəbəyli: "Fransalı deputatların Makronun qərarına etiraz etməsi tamamilə əsaslıdır"*

Məlumatlara görə, bu ölkənin hakim və müxalifət partiyalarının deputatları Makronun qəbul etdiyi qərarı pisləyiblər.

Qeyd edilənə görə, Fransa 2001-ci ildə qondarma "erməni soyqırımı"nı rəsmi olaraq tanıyıb.

**Fransalı parlamentarilər Makronun bədnam qərarına qarşı…**

Fransa Milli Assambleyasında Fransa-Türkiyə dostluq qrupunun üzvü, hakim İrəliləyən Respublika ("La Republique en Marche") Partiyasının deputatı Filip Folyo Azərbaycan mətbuatına bildirib ki, qərar bir neçə il bundan əvvəl qəbul edilmiş qanunun məntiqi davamıdır: "Bu sərəncam Fransa-Türkiyə münasibətlərinə mənfi təsir göstərəcək. Ötən həftə NATO Parlament Assambleyasının iclasında iştirak etmək üçün həmkarlarımla birlikdə Türkiyədə səfərdəydim. Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri M.Şentop və xarici işlər naziri M.Çavuşoğlu Fransanın bu qərarına çox sərt formada etiraz etdilər".

F.Folyo "Fransa kiməsə dərs verə bilməz və bunun üçün əlverişli mövqeyə də malik deyil. Biz özümüz öz tariximizə fəxrlə yanaşırıq, halbuki, çox hadisələr baş verib. Artıq bir sıra məsələlərin davamı kimi bu qərarı vermişik, ancaq bunun üzərində dayanmamağı zəruri sayıram. Biz gələcəyə üzümüzü tutmalıyıq. Yəni Fransa ilə Türkiyə arasında yaxşı münasibətlər yaratmağa çalışmalıyıq" - deyə bildirib.

Fransa Milli Assambleyasında Fransa-Türkiyə dostluq qrupunun üzvü, müxalif Sosialistlər Partiyasından olan deputat Jerom Lamber Makronun son qərarını mənasız adlandırıb: "Bu mənasız bir qərar idi. İnanmıram ki, bu addım Fransa-Türkiyə münasibətlərinə ciddi mənfi təsir göstərsin".

Onun sözlərinə görə, aprelin 24-nün qondarma "erməni soyqırımı qurbanlarının" xatirəsi günü elan edilməsinə ehtiyac yox idi: "Dünyada xeyli sayda soyqırım baş verib. Əlbəttə, ispanlar, asteklər, mayaların başına gələnlərdən xəbərdar olmaq yaxşıdır. Lakin xatirə günü kimi qeyd etməyin mənası yoxdur. Bu gün unudulan, tarixdən silinən soyqırımlar da çoxdur. Amerika hindularının məhv edilməsini yadımıza salaq. Bu faciə çox da uzaq tariximizdə yaşanmayıb. Hinduların, demək olar ki, hamısı yer üzündən silinib. Belə bir kontekstdə qondarma "erməni soyqırımı qurbanları"na xatirə günü təsis etmək tamamilə lazımsız idi", - deputat qeyd edib.

**Deputat Jan-Lük Reitzer mövcud hakimiyyəti başqa ölkələrin tarixi ilə bağlı məsələlərə qarışmamağa çağırıb**

Fransa Milli Assambleyasında Fransa-Türkiyə dostluq qrupunun üzvü, Respublikaçılar Partiyasının deputatı Jan-Lük Reitzer vurğulayıb ki, bu qərar Türkiyə rəsmilərinin çox böyük qəzəbinə səbəb olub: "Mən sərəncamın rəsmi qəzetdə işıq üzü gördüyü günün səhərisi Türkiyədə səfərdəydim və NATO Parlament Assambleyasının iclasında iştirak edirdim. Doğrudan da gərginlik var idi. Türkiyə rəsmiləri çıxışları zamanı bununla bağlı Fransaya kəskin etirazlarını bildirdilər. Mən daim bu məsələdə əks mövqedə olmuşam və qanunun da vaxtilə əleyhinə səs vermişəm. Çünki hesab edirəm ki, Fransa başqa bir ölkənin tarixinə aid olan məsələyə qarışmamalıdır, hər ölkə öz tarixinə cavabdehlik daşımalıdır. Tarixi yazmaq tarixçilərin işidir. Fikrimcə, münaqişəli məsələlərə qarışmaq, tərəf saxlamaq xarici ölkələrin və siyasətçilərinin işi deyil. Biz heç bir ölkəyə dərs keçməməliyik. Emmanuel Makronun qərarı Fransa-Türkiyə münasibətlərinə mənfi təsir göstərəcək" - deyə deputat qeyd edib.

**"Fransa tarixinə məxsus olmayan bir hadisəni rəsmiləşdirməyə ehtiyac yox idi"**

Fransa Milli Assambleyasında Fransa-Azərbaycan dostluq qrupunun üzvü, müxalif Demokratlar, Radikallar və Liberalların Birliyi Partiyasının deputatı Andre Vilye ölkə tarixinə salınan bu hadisənin, əslində, Fransaya heç bir aidiyyəti olmadığını deyib: "Bu, Türkiyəyə aid bir məsələdir. Fransa ermənilərə sığınacaq verən bir ölkə olub. Düzdür, bu gün Fransada erməni icması çoxluq təşkil edir. Hətta ölkədə 500 min erməninin yaşadığı deyilir. Lakin Fransa tarixinə məxsus olmayan bir hadisəni rəsmiləşdirməyə ehtiyac yox idi. Hesab edirəm ki, Fransa gələcək üçün daha çox xeyir gətirə biləcək addımlar atmalıdır. Məsələn, türk və erməni xalqları arasında yaxınlaşmaya, əməkdaşlığa xidmət edəcək əməllərə imza atması daha faydalı olardı".

Bu fransalı deputatların fikirləri Makronun Türk dünyasına qarşı təzyiq vasitəsi olaraq qəbul etdiyi qərarın Fransa cəmiyyətində də normal qəbul edilmədiyini deməyə əsas verir. Bəzi şərhçilərin fikrincə, Makronun son qərarı ölkənin erməni icmasının, diasporunun maraqlarını təmin etsə də, bütövlükdə, Fransa cəmiyyətinin iradəsini ifadə etmir.

**"Fransa Prezidentinin qərarı Fransa cəmiyyətinin iradəsini ifadə etməsə də..."**

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, özünü ermənilərin "böyük bacısı" adlandıran Fransada bu gün mütərəqqi qüvvələrin olması müsbət bir göstəricidir. Ancaq millət vəkili hesab etmir ki, deputatların etirazları Makronun verdiyi qərarın ləğvinə səbəb ola bilər. O qeyd etdi ki, bu qərar Fransa ictimaiyyətinin iradəsini ifadə etməsə də, Fransa hökumətinin ermənipərəst mövqeyini bir daha ortaya qoyub. "Təbii ki, heç bir hakimiyyət birqütblü deyil, orada müxalif qüvvələr təmsil olunur. Fransa Prezidentinin mövqeləri son zamanlar xeyli zəifləyib. Xüsusilə də son zamanlar "sarı jiletlilər"ə qarşı həyata keçirilən zorakılıqlar onun mövqeyini zədələyib. Ona görə də Fransanın müxalif qüvvələrinin onun son qərarına etiraz etməsi təbiidir. Məlumdur ki, Fransa hökuməti həmişə Azərbaycana, Türk dünyasına qarşı ədalətsiz davranıb. Fransa özünü ermənilərin "böyük bacısı" hesab edir və həmişə də onlara dəstək verir. Çox təəssüf ki, Fransa artıq Minsk Qrupunun üzvü olaraq bitərəf mövqe tutmalı olduğu halda, açıq şəkildə Ermənistanı müdafiə etdiyini ortaya qoyur. Fransanın Türkiyəyə də qarşı mövqeyi məlumdur. Sözün açığı, mən Fransadan başqa bir addım da gözləmirəm. Sadəcə olaraq bunu nəzərə alıb Türkiyə, Azərbaycan və digər türk respublikaları Fransa ilə münasibətlərə yenidən baxmalıdırlar. Yəni istər onların böyük layihələrdə iştirakı, istərsə də digər məsələlərdə olsun, bu məsələlərin mütləq bir siyasi ritorikası olmalıdır".

O, həmçinin, hesab edir ki, deputatların Fransa Prezidentinin verdiyi qərara etiraz etməsi Fransanın ermənilərə bəslədiyi "sevgi"ni söndürə bilməyəcək, bu hökumət Ermənistanı dəstəkləməkdə davam edəcək. "Sözsüz ki, bu, qərəzli və zərərli siyasətdir. Əgər bu gün Fransa parlamentində hadisələrə ayıq baxan, prosesləri düzgün qiymətləndirən, mövcud beynəlxalq konvensiyalara, hüquqa söykənən davranış göstərən parlamentarilər ortaya çıxıbsa, belə qüvvələr ciddi bir nəticəyə nail ola bilərlərsə, əlbəttə, bu, ölkələrimiz arasındakı münasibətlərə müsbət təsir edər. Fransa parlamentinin deputatlarının Makronun qərarına etiraz etməsi o deməkdir ki, hələ də deputatlar arasında sağlam düşünənlər, hadisələrə real yanaşanlar var. Fransa Prezidentinin qərarı Fransa cəmiyyətinin iradəsini ifadə etməsə də, lakin bu gün siyasi elita, birmənalı olaraq, bu kursu götürüb. Açığı, burada Ermənistanın mövqelərini zəiflədəcək bir qərar qəbul edilməsinə və erməniləri dəstəkləyən qərarların ləğv olunmasına inanmıram" - deyə F.Quliyev qeyd etdi.

**"Hər kəsə bəllidir ki, tarixdə "erməni soyqırımı" adlı hadisə baş verməyib"**

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli bildirdi ki, həm Fransada, həm də digər xarici ölkələrdə qondarma "erməni soyqırımı" ilə bağlı qəbul edilən qərarların heç bir hüquqi əsası yoxdur. "Bu yalnız siyasi maraqları ifadə edir. Bildiyimiz kimi, Fransanın özündə böyük erməni icması yaşayır və onlar Fransa deputatlarının seçki kampaniyasında yaxından iştirak ediblər, onları maliyyələşdiriblər. Bu aspektdən təəssüflər olsun ki, Fransa kimi Avropa Birliyinin ən iri dövləti və BMT Təhlükəsizlik Şurasının üzvü olan ölkə belə məsələlərdə rol alır və heç bir hüquqi əsası olmayan qərarlar qəbul edir. Fransalı deputatların Makronun qərarına etiraz etməsi tamamilə əsaslıdır. Çünki Türkiyə dəfələrlə ermənilərə müraciət edib ki, istənilən məsələlərlə bağlı arxivləri açmağa hazırıq, buyurun gəlin müzakirə edək. Hər kəsə bəllidir ki, tarixdə "erməni soyqırımı" adlı hadisə baş verməyib, sadəcə, baş verən müharibə zamanı ermənilər köçürülərkən yolda ölüm halları baş verib. Yəni onlar soyqırıma məruz qalmayıblar və "erməni soyqırımı"nın heç bir hüquqi əsası yoxdur. Ermənilər əmin olsaydılar ki, həqiqətən də soyqırıma məruz qalıblar, o zaman onlar beynəlxalq məhkəməyə müraciət edərdilər və beynəlxalq tribunalın çağırılması istiqamətində addımlar atardılar. Göründüyü kimi, indiyə qədər nə belə bir addım atılıb, nə də bu yöndə məhkəmə qərarı var. Qəbul edilən bütün qərarlar siyasi xarakterlidir və əsasən Türkiyəyə qarşı təzyiq vasitəsidir. 24 aprelin isə qondarma "erməni soyqırımı qurbanları"nın xatirə günü kimi qeyd edilməsi Fransa tarixinə qara bir ləkədir. Əslində, Fransada təkcə ermənilər yaşamır, burada çoxlu sayda türk diasporu nümayəndələri də yaşayırlar. Bu yanaşma tərzi Fransanın özünün elan etdiyi dəyərlərə zidd fəaliyyət göstərdiyini nümayiş etdirir" - deyə bildirən politoloqun fikrincə, bu, ayrıseçkiliyə xidmət edən bir addımdır və bunun nəticələri Fransanın özü üçün heç də yaxşı şeylər vəd etmir.

*İradə SARIYEVA*

# "Yurd"un viran qoyduğu Elçibəy yurdu və Əli Kərimliyə qalan tək "siyasi ekspertlik"...

**Özünü lider sayan hər bir kəsin siyasi döllü və ya dölsüzlüyü kompleks olaraq üç istiqamətdə göstərilən fəaliyyətlərin ortaya qoyduğu nəticə ilə müəyyən edilir. Bunlar kütləvi siyasi təsir aksiyalarının təşkili, kənar ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması və yazılı-şifahi ritorikaların aparılmasıdır. Bir çox ölkələrin və siyasətçilərin tarixinin və mübarizəsinin təhlili, nə qədər çətin olsa da, göstərilən hər üç istiqamətdə kompleks olaraq nəhəng nəticələr əldə etmiş şəxsiyyətlərin olduğunu göstərir.**



**Aydın QULİYEV**

Elə nümunələr də var ki, həmin fəaliyyət istiqamətlərinin sadəcə imitasiyası ilə məşğul olurlar. Əslində isə belələri nə təsirli aksiyaların təşkilində, nə də qlobal-dünyəvi əlaqələr qurmaqda heç bir ciddi nəticəyə çata bilmədikləri üçün əlacsızlıqdan yazılı və şifahi ritorikanın qulpundan yapışır, sadəcə adi ekspert pilləsinə yuvarlanırlar: AXCP sədri Əli Kərimli kimi...

Başqa bir Azərbaycan siyasətçisi barədə belə bir populyar və qanadlı fikir illərdi ictimai rəydən çıxmır: "O, siyasətdə çox uzun yol gedəcək, lakin nəticəsiz və mənasız bir siyasi ömür yaşayacaq". Bu fikir AXCP sədri haqqında məxsusi deyilməyib. Ancaq bir sıra tutarlı əlamətlərinə görə ona bundan yaraşıqlı ictimai fikir dəyərləndirməsi tapmaq mümkün deyil. Siyasətdə uğursuzluğu, nəticəsizliyi, mənasız inadkarlığı, hətta şəxsi ləyaqət hissinə lazımi önəm verə bilməməsi kimi göz qabağında olan xüsusiyyətlər AXCP sədrinə verilən ictimai qiymətin əsasına çevrilir. Azərbaycanın siyasi tarix mətbəxinə az-çox bələdçiliyi olanlar Əli Kərimlinin digər siyasi personalara tez-tez dəyişilən şəxsi münasibətlərinə dair yəqin çox faktlar xatırlayırlar. İsa Qəmbər, Etibar Məmmədov, Mirmahmud Mirəlioğlu və digərləri ilə dəyişkən münasibətlərə dair yüzlərlə fakt məlumdur. Yəqin çoxlarının yadındadır ki, ADP sədri Sərdar Cəlaloğlu hələ 2000-ci illərin başlanğıcında AXCP sədri barədə hansı qeyri-senzuralı fikirləri deyirdi və yazırdı. Bu fikirlərin həqiqət olub-olmadığını bir kənara qoyaraq onun üzərində dayanmağı vacib sayıram ki, qəbuledilməz sözlərdən bir neçə həftə və ya bir neçə ay sonra Əli Kərimli ya Sərdar Cəlaloğlunun yanında, ya da tədbir keçirmək üçün ADP-nin qərargahında peyda olurdu. Məhz belə məqamlarda bir çoxları siyasətdə hansı məqsədin şəxsi şərəf və ləyaqətdən üstün ola biləcəyi sualına cavab axtarışlarına baş vurmaq zorunda qalırdı. Səni söyüb təhqir edən adamın qapısına getmək şəxsi ləyaqətə hörmət nümunəsi sayıla bilməz və heç bir siyasi hədəfi əsas götürməklə buna haqq qazandırmaq da olmaz.

### Hesab edirlər ki, o, meydanda yeganə müxalifət lideri kimi qalıb...

Yəqin ki, Əli Kərimli və çevrəsindəki şəxslər bu gün onu müxalif təşkilat rəhbərlərinin arasında ən güclüsü, inamlı və perspektivlisi sayırlar. Hesab edirlər ki, o, meydanda yeganə müxalifət lideri kimi qalıb. Dərindən yanaşanda, deyilənlərdən çox fərqli sadə bir mahiyyət fərqinin olduğunu görürük. Fərqli mahiyyət AXCP sədrinin bu gün meydanda yeganə müxalifət lideri kimi qalması yox, cəmiyyətin əsaslı dəstək verməyib və mümkün qədər uzaq durmağa çalışdığı təklənmiş, yalqız bir müxalifət personasına çevrilməsidir. Siyasi mübarizədə şərəfli məğlubiyyətin özü də bir sonluqdur. Nə yazıq ki, belə sonluğu mərdanə şəkildə qəbul etmək xoşbəxtliyini heç də hamı özünə rəva görə bilmir. Yazı-pozunu dayandırmış bir məşhur yazıçıdan "nə üçün daha yazmırsınız" deyə soruşanda belə cavab verib:"Mənim oxucularım artıq ölüb". Sənətdən, peşədən vaxtında getməyin bundan müdrik və şərəf gətirən ifadəsi ola bilməz. İsa Qəmbər, Etibar Məmmədov və bəzi başqaları məhz təklənməmək, yalqız qalmamaq üçün aktiv siyasi mübarizə meydanlarından çəkilməyi doğru hesab etdilər. Ya oxucusu ölmüş yazıçı kimi, ya da gələcək oxucularını gözləyən guşəyə çəkilmiş yazıçı kimi... Yıxılmış güləşçinin kürəyi yerdən doymadığı kimi, Əli Kərimli də kürəyi yerdə süründükcə aqressivləşir, müdrik nümunələrdən dərs götürmür ki, götürmür...

Əli Kərimlinin qrupunun içində olduğu yanlış və qeyri-real düşüncələrdən biri məlum fəaliyyətlərini guya xalqın mənafeləri naminə etdiklərinə inanmaqlarıdır. Əslində ortada xalq mənafeyi deyilən nəsnənin olmadığını tutarlı şəkildə sübut edən məntiq və tezislər var. Xalq, cəmiyyət bu qədərmi nankor oldu ki, onun mənafeyi üçün vuruşduğunu iddia edən siyasi personanı meydanlarda ən yaxşı halda 2-3 min etirazçının əhatəsində köməksiz, yalqız buraxdı?! Xalq üçün vuruşduğunu iddia edən kəs xalqın belə müdafiəyə ehtiyac hiss etdiyini soruşdumu? Xalqın bu gün Bakının küçələrində təpikləşmə-şilləşmə formasında müdafiələrə ehtiyacı varmı? Varsa, o zaman niyə belələrindən mümkün qədər uzaq durmaq istəyir, nəinki dəstəkləmək... Xalq bu gün Əli bəy kimi uzun, ancaq nəticəsiz və perspektivsiz yol gedən siyasətçilərə dəstək verməyib, inanmadığı üçün ona və onun kimilərə sanballı beynəlxalq siyasi dairələrdən dəstək də yoxdur. 2004-cü ildə Tiflisin küçələrində aksiya keçirən Saakaşviliyə o zamankı ABŞ prezidenti Buşun telefon açdığını yəqin ki, xatırlayırsınız. Buşu bu jestə sövq edən tək Saakaşvili yox, onun adına meydana yığışmış yüz minlərlə insanın gücü idi. İndiki ABŞ prezidenti Tramp Ukrayna prezidenti Zelenskiyə, Liviyanın ən böyük siyasi gücünə çevrilməkdə olan admiral Xəlifə Haftara telefon açmasına da eyni məntiqlə yanaşmaq lazımdır. Əli Kərimliyə, dünyanın dövlət liderləri bir yana qalsın, hakim siyasi partiya liderləri bir yana qalsın, hətta kiçik partiya rəhbərlərinin belə telefon açdığına dair nümunə yoxdur. Hətta Bakıdakı səfirlər, diplomatik korpus rəhbərləri görüşə, danışığa hər hansı maraq göstərmirlər. Çünki qarşılarında güc görmürlər, Əli Kərimli Azərbaycan dilindən başqa dil bilmir, küçə-meydan aksiyalarının və seçki proseslərinin təşkilində heç bir güc nümayiş etdirə bilmədiyinə görə yazılı və şifahi ritorika ilə məşğul olan sıradan bir siyasi ekspertə çevrilib, vəssalam...

### Elçibəylə İsa Qəmbərin gərgin münasibətlərinin kökünü məhz Əli Kərimlinin...

İllərdir Əli Kərimlinin adının üstündə qarabaqara onu izləyən xəyanətkar və xəyanətə meyllilik yarlığı xüsusi yanaşma tələb edir. Yarlığın reallıqla əlaqəsi olmayan adicə uydurma olduğunun sübutuna yönəlmiş çoxillik səylər nəticə vermir. Çünki faktlar var. Xalq Cəbhəsi hakimiyyətinin iki populyar fiquru olan Elçibəylə İsa Qəmbərin gərgin münasibətlərinin kökünü məhz Əli Kərimlinin qayda tanımayan oyunlarının nəticəsi sayanlar hələ yaşayır. Bu insanların heç də haqsız olmadığına sübutlar var. Belə ki, Əli Kərimli hələ o dövrdən özünü hərəkat lideri Elçibəydən və onun sağ əli İsa Qəmbərdən üstün hesab edən örtülü ambisiyalara sahib idi. Açıq-aşkar onların hər ikisinə qarşı mübarizə aparmaq və üstünlüyünü göstərmək gücünə malik olmadığı üçün başqa taktika seçdi: Elçibəylə İsa Qəmbərin arasını vurmaqla onları daimi münaqişə vəziyyətinə gətirmək. Seçilmiş taktika öz nəticəsini verdi. Elçibəy və İsa Qəmbər düz bir il eyni komandanın ayrı-ayrılıqda iki başı kimi göründü, İsa Qəmbər öz siyasi partiyasını formalaşdırana qədər (o vaxt hələ Müsavat Partiyası yox idi - A.Q) parlament seçkilərinin keçirilməsinin təxirə salınmasına nail oldu, AXC iqtidarı 93-cü ildə hakimiyyətdən gedəndən sonra Elçibəylə İsa Qəmbərin "bir adam" olmadıqları tam görüntü ilə üzə çıxdı, hər kəs öz yolu ilə getdi və ulduzları heç vaxt barışmadı. Çünki intriqanı kökdən alovlandıran şəxs mərhum Elçibəyin düz bir addımlığında mövqe tutmuşdu. Əbülfəz bəy siyasətdən fiziki olaraq gedəndən sonra Əli Kərimlinin İsa Qəmbərə qarşı əl-qolu açıldı, bir vaxtlar AXC iqtidarı daxilində hətta Elçibəyə qarşı çevrilmiş örtülü siyasi oyunlarını sərbəst şəkildə aparmaq imkanı əldə etdi. AXC iqtidarının cəmi bir il yaşamasına səbəb olmuş yarıtmaz və tənəzzül siyasətinin əsas müqəssirlərindən biri Dövlət katibi postunu tutan Əli Kərimli oldu.

2000-ci ilin parlament seçkilərindən qabaq müxalifətdən mandat almış deputatların Milli Məclisə getməməsi barədə saziş olsa da, bu sazişi ilk Əli Kərimli pozdu. İsa Qəmbərə yaxın mətbuatın guya onun barəsində yanlış, böhtan yazdığını əsas gətirərək sazişi həmən pozdu və 4-5 nəfər partiyadaşı ilə birlikdə parlamentə, üstəlik, AŞPA-ya getdi. İndi barışmazlıqla mübarizə apardığı hakimiyyətin o zamankı parlamentində mandat sahibi olmaq Əli bəyin şəxsi maraq oyunlarına uyğun idi. 2003-cü ilin prezident seçkilərində yanbayan hakimiyyət-komanda ortağı olmuş İsa Qəmbərə yox, Etibar Məmmədova dəstək verməsini də demokratiya naminə gediş yox, şəxsi ambisioz planlara uyğun manevr saymaq olar. Bu kimi deyilən və deyilməyən faktların qarşısında AXCP sədrinin adının üstündən siyasi etibarsızlıq və xəyanət yarlığının silinməsinə yönəlmiş çoxillik səylərin nəticə verməməsi çox təbii görsənir.

### Əli Kərimli təəssübkeş dövlətçi yox, adi qisasçı təfəkkürdə olduğu üçün...

Əli Kərimlinin yazılı və şifahi siyasi ritorikalarını izlədikcə qarşıya çıxan başqa bir məqama da toxunmaq lazımdır. Bu gün Azərbaycanda hər şeyi qara rəngdə görmək, heç bir pozitiv görüntü qeydə almamaq, hakimiyyətin birmənalı və yalnız barışmaz ittihamçısı rolunu oynamaq öz yerində... Bütünlüklə xaricdən Azərbaycanın əleyhinə çevrilmiş təmayül və hadisələrə biganəlik, onlara toxunmamaq xüsusi söz-söhbətlər üçün əsas verir. Əli Kərimlinin təəssübkeş dövlətçi yox, adi qisasçı təfəkkürdə olduğunu iddia edərək onun öz övladlarını xarici ölkələrdə saxlamasına fakt kimi söykənənlərin əlinə daha ağır və çəkili arqumentlər düşür. Qərb ölkələri Krımın ilhaqına görə Rusiyaya sanksiyalar tətbiq etdikləri halda oxşar ilhaq faktına görə Ermənistanın təcavüzkarlığına susdular, Əli Kərimli də onlara qoşularaq susdu, bu mövzuya toxunmadı. Tramp Qüdsü İsrailin paytaxtı kimi tanıyanda, İsrailin işğal edilmiş Suriya torpaqları üzərində suverenliyini tanıyanda da Azərbaycan radikalları, içi Əli Kərimli qarışıq, sükuta daldılar, "gözəl bir gündə" işğal edilmiş Qarabağın üzərində işğalçının suverenliyinin tanına biləcəyi təhlükəsinə göz yumdular. Sabah BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla əlaqədar 4 qətnaməsinin niyə yerinə yetirilmədiyinə dair məsələ qaldırmağa Əli Kərimlinin və qrupunun nə dili, nə də mənəvi haqqı qalacaq. Çünki həmin Təhlükəsizlik Şurasının Qüds və Colanla bağlı qətnamələrini ayaqlar altında tapdalayanlara bir kəlmə də olsun, əks fikir yazmadılar. Çünki ortada Trampın və ondan sonra gələcək prezidentlərin Əli Kərimlinin hakimiyyət perspektivlərinə mane ola biləcəklərinə oxşar mücərrəd və əslində Azərbaycana düşmən mahiyyətli qorxu hissi var...

AXCP sədrinin ritorikalarının əbədi mövzularından biri torpaqları işğal etmiş Ermənistan rəhbərlərinin siyasətini bir kənara qoyaraq, təkcə Azərbaycan hakimiyyətini ittiham etməkdir. İttiham subyektlərinin sırasında Ermənistanın siyasəti və rəhbərləri niyə yoxdu? Gizli gələn maliyyə kanallarının dünya erməni lobbisinə bağlı mərkəzlərdən, fondlardan gəldiyi barədə iddialar bu yerdə bir az da möhkəmlənir. Möhkəmləndirici arqumentlərin sırasında bəzi beynəlxalq təşkilatların Azərbaycan barədə qəbul etdikləri açıq-aşkar qaralayıcı, qərəzli sənədlərinin bəh-bəhlə qarşılanmasıdır, həm də bilə-bilə ki, bu tip sənədlərin arxasında Azərbaycanı zəif və müti duruma düşürməklə Qarabağ probleminin hər cür həllinə hazırlamaq kimi məqsəd güdən ermənipərəst dairələr də var. Belə sənədlərin qəbul olunmasına bizə düşmən beynəlxalq mərkəzlər bir cür dəstək verir, Əli Kərimli Avropada cəmlənmiş bəzi mühacir qrupları yönəltməklə başqa cür dəstək verir. Dəstək isə dəstəkdir...

### Hərəkat düşərgəsində Əli Kərimliyə antipativ - emosional münasibətin kökü...

Bu gün Azərbaycan siyasətinin şəxsi-emosional müstəvidə aydın görünən fenomenlərindən biri sıravi müsavatçılar, digər hərəkat partiyaları və AXCP-nin özündən ayrılmış partiya üzvləri arasında Əli Kərimliyə şəxsi antipativ münasibətin mövcudluğudur. Bir vaxtlar eyni komandada olmuş bu şəxslərin antipativ davranışları tək onunla bağlı deyil ki, Əli Kərimli siyasi rəqabətdə İsa Qəmbərə güzəşt etməyib və həmişə ona boy göstərib. Köklər daha dərindədir. Əli Kərimlinin hərəkat içindəki tək özünə münasib "Yurd" oyunları, AXC iqtidarı daxilində Elçibəy-Qəmbər birliyini şikəst etməsi, Elçibəyin Heydər Əliyevlə daha konstruktiv siyasi müxalifətçilik platformasına maneçilik törətməsi, AXCP-nin bir partiya olaraq neçə yerə parçalanması ilə bağlıdır. Bu gün də həmin eqoist siyasətin davamı olaraq tərəfdarları hətta müsavatçıların, digər partiya üzvlərinin qatıldığı mitinqlərdə Əli Kərimlini müxalifətin "ən güclü və şəriksiz lideri" kimi qələmə verməkdədirlər. Onlar AXCP sədrini hər cür siyasi tələ və labirintlərdən sağ-salamat çıxmağa müvəffəq olmuş guya bacarıqlı lider kimi qələmə verdikcə, müxalif düşərgənin digər nümayəndələrinin gözündə Əli bəyin öz müttəfiq və tərəfdaşlarına qarşı gizli oyunlar aparan, ona münasib olmayan hər kəsi yarı yolda qoyan, hətta Elçibəy kimi təşkilat lideri əleyhinə iradə göstərən, xəyanət ştrixlərinə malik portreti canlanır.

Siyasi portreti göstərilən mənəvi-psixoloji və praktik cizgilərə malik personanın vətənpərvərlik duyğuları və əsl dövlətçilik şüurunun daşıyıcısı olduğunu söyləmək isə mümkünsüzdür. "Yurd"un xəyanət və sürüşkənlikdən doğan siyasi oyun ssenarilərinin qurbanı tək Elçibəy yurdu olmadı. Ölümə də getməyə hazır minlərlə gəncin demokratiya və dövlətçilik idealı alt-üst oldu, həbsxanalarda çürüdü, cəlayi-vətən olub Avropanın küçələrinə səpələndilər, hakimiyyət perspektivi həmişəlik itirildi, vətənpərvərlik duyğuları komik günə qoyuldu. Tək bir nəfərin - Əli Kərimlinin xüsusi bir istedada söykənməyən siyasi dölsüz ambisiyaları naminə...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyandan zorən etiraf - "Rusiya ilə münasibətlər yaxşı deyil..."

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslərin yenidən kifayət qədər dinamik şəkildə inkişaf etməsi müşahidə edilməkdədir. Belə görünür ki, regionda marağı olan böyük güclər artıq prosesdə hansısa nəticənin əldə olunmasını istəyir. Hər halda, Rusiya və ABŞ-ın prosesə yanaşması, Avropa İttifaqının sərgilədiyi mövqe bu qənaəti daha da gücləndirir.**

Xatırladaq ki, hər iki ölkə konfliktin dinc müstəvidə həlli istiqamətində indi xüsusi aktivlik nümayiş etdirir. Belə ki, cari il martın 29-dakı Vyana görüşündən cəmi iki həftə sonra Rusiya xarici işlər naziri Sergey Lavrovun təşəbbüsü ilə Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirildi.

Bunun ardınca, məlumat verildiyi kimi, amerikalı diplomatlar Azərbaycan və Ermənistan XİN rəhbərlərini Vaşinqtona dəvət ediblər. Belə vəziyyətdə artıq o da bəlli olub ki, ABŞ-ın dövlət katibi Mayk Pompeo Qarabağ münaqişəsinin nizamlanmasında şəxsi səylərini göstərmək niyyətindədir. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda gözlənilən görüşünü şərh edərkən ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger isə bildirib: "Görüşün dəqiq vaxtı haqda məlumat yoxdur. Biz xarici işlər nazirlərinin Moskva görüşünü alqışlayırıq və görüşdən sonra səsləndirilən bəyanatdan məmnunluq duyuruq. Biz səbrsizliklə dialoqun davam etdirilməsini gözləyirik". O qeyd edib ki, ABŞ ATƏT-in həmsədr ölkələrindən biridir: "ATƏT-in və həmsədrlərin məqsədi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həlli üçün münaqişə tərəflərini bir araya gətirməkdir. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsiplərinə - güc tətbiq etməmək, ölkələrin ərazi bütövlüyü, xalqların öz müqəddəratını həll etməsi prinsipləri əsasında həll olunmalıdır".

Münaqişənin nizamlanmasında digər maraqlı məqam danışıqlar masasında hər hansı sənədin varlığı, müzakirə mövzusunun nədən ibarət olmasıdır. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Moskva görüşündən sonra bəyan edib ki, hazırda 2016-cı ildə irəli sürülən təkliflər müzakirə edilir. Lakin erməni tərəfi bunu inkar edərək, hər hansısa sənəd ətrafında müzakirə getmədiyini bildirib. Erməni tərəfi qeyd edib ki, tərəflər bir-birinin mövqeyinin aydınlaşdırılması və tanış olma prosesini davam etdirir.

Hərbi siyasi məsələlər üzrə rus ekspert Vladimir Yevseyev bildirib ki, Lavrovun bu görüşlə bağlı təşəbbüsünün məqsədi ilk olaraq gərginliyin azaldılmasına yönəlib. O qeyd edib ki, istənilən həmsədr ölkə keçmişdə əldə edilən razılaşmalar ətrafında irəliləyişə nail olmağa çalışır. Rusiya isə prosesdə daha çox nəticə əldə etmək istəyir: "Çox layihələr var. Məsələn, yenilənmiş "Madrid prinsipləri", məlum olduğu kimi, ATƏT-in Minsk Qrupu həmsədrləri buna dəstək nümayiş etdirib. Bölgəyə dair istənilən məsələ müzakirə edilmədən öncə gərginliyin azaldılması vacibdir. İndiki vəziyyətdə ərazilərin qaytarılmasına dair məsələnin gündəliyə daxil edilməsi üçün hələ çox iş görülməlidir". Moskvanın bu prosesdə uzunmüddətli layihəyə malik olub-olmamasına da toxunan Yevseyev qeyd edib ki, Rusiya tərəfi yenilənmiş "Madrid prinsipləri" ilə razıdır: "Həmsədrlər bu layihəyə tərəfdar olub". Onun sözlərinə görə, beynəlxalq vəziyyət də bu məsələnin həllində önəm daşıyır. Moskva görüşündən sonra, qeyd olunduğu kimi, indi də Vaşinqtonda görüşün keçirilməsi nəzərdə tutulur. Bunun nə məna daşıdığını Yevseyev belə izah edib: "Moskva hər hansı bir tədbiri keçirdikdə, məsələn, Əfqanıstan münaqişəsinin həlli üzrə iclas keçirdiyi anda Vaşinqton fikirləşir ki, nə üçün bu tədbiri ilk öncə Amerika tərəfi keçirməyib. Artıq bu məsələnin beynəlxalq əlaqələrlə heç bir bağlantısı yoxdur. Buna görə Rusiyanın belə bir təşəbbüslə çıxış etməsindən sonra Amerikanın da bu cür tədbirə əl atması artıq təbii haldır". Bununla belə, ekspert vurğulayır ki, Rusiyaınn münaqişənin həllinə təsir imkanları çoxdur və Moskva hansısa nəticənin əldə olunmasında maraqlıdır.

Beynəlxalq məsələlər üzrə digər ekspert Yevgeni Mixaylov da eyni mövqeni bölüşür. O, Qarabağ məsələsi ilə həm də Rusiyanın Ermənistana dərs vermək niyyətinin mövcudluğunu da gizlətmir: "Ermənistanın milli maraqlarına və Rusiya ilə siyasi əməkdaşlığa sadiqliyini sübut edən siyasi rəqibləri təqib etmək olmazdı. Paşinyan isə hakimiyyətə gələrkən öz siyasi rəqibləri olan və Moskvaya bağlı şəxslərə qarşı cinayət işi açdırıb. Rusiya prezidentinin bunu asanlıqla bağışlaması inandırıcı deyil. Bundan əlavə, ABŞ nümayəndə heyətinin İrəvanda Ermənistana kömək vəd etməsi və nümayəndə heyəti tərəfindən uydurma demokratik islahatların dəstəyinə söz verilməsi Rusiya üçün qıcıqlandırıcı bir faktordur. Açıq görünür ki, Paşinyan rəsmi Moskvaya sübut etməyə çalışır ki, onun əlində Ermənistanın taleyinə ciddi təsir göstərə biləcək real bir seçim var. Odur ki, rəsmi Moskva ya İrəvana ciddi təsir göstərməlidir, ya da ABŞ-ın Ermənistanı NATO-nun forpostuna çevirməsini izləməlidir. Mənim fikrimcə, yaxın zamanlarda buna heç kim yol verməz. Tezliklə hadisələrin inkişafı ilə Ermənistanın qarşısına bir sualın qoyulmasına şahid olacağıq: ya bizimləsiniz, ya bizə qarşı. Məhz bu hal da Qarabağ məsələsinə təsirsiz ötüşməyəcək və nazirlərin Moskva görüşü bu xüsusda atılan növbəti addımlardan biridir. Onun davamı gələrsə, Moskva Qarabağ məsələsinin həllində hansısa yenilik əldə edə biləcək". Ekspert vurğulayır ki, belə vəziyyətdə Ermənistana dinc şəkildə ərazilərin bir hissəsinin qaytarılması üçün təzyiqlərin olması gözləniləndir. Əks təqdirdə Rusiya Azərbaycanın hərb müstəvisində Ermənistanı əzməsinə lazımi imkan yaradacaq, daha doğrusu, savaşa göz yumacaq.

Maraqlıdır ki, verdiyi gurultulu bəyanatlara rəğmən, Paşinyan özü də Rusiya ilə ciddi problemlər yaşadıqlarını bildirir. O, "civilnet" saytına müsahibəsində etiraf edir ki, Moskva İrəvana inanmır: "Mənim Rusiya prezidenti Vladimir Putinlə çox yaxşı münasibətlərim var, lakin Ermənistanın digər məmurlarına qarşı inamsızlıq mövcuddur. Mən çox aydın danışmaq istəyirəm. Bəli, sirr deyil ki, Rusiya elitasında Ermənistanda baş verənlərlə bağlı problemlər mövcuddur. Hakimiyyətə gələnlər keçmişdə siyasi müxalifət və aktivistlər olublar. Onlar vətəndaş sektorunda yerləşməyə məcbur idilər, çünki keçmiş hökumət onlarla əməkdaşlıq istəmirdi. Vətəndaş sektoru beynəlxalq təşkilatlar, o cümlədən Rusiyada pis qəbul edilən qurumlar tərəfindən maliyyələşdirilirdi. Bu səbəbdən biz tez-tez inamsızlıq görürük və mən əminəm ki, bu inamsızlıq zamanla ləğv olunacaq". Lakin proseslərin gedişi Rusiyanın Paşinyana inamının əslində tam tükənməkdə olduğunu göstərir. Məhz bu durumda Moskvanın İrəvana dəstəyi də sürətlə azalır. Bunu rusiyalı hərbi ekspert Pavel Felgenhauer də təsdiq edir. O bildirib ki, münasibətlərdə hələ də gərginlik və qarşılıqlı inamsızlıq var:

"Dəqiq desək, inamsızlıq qarşılıqlı yox, birtərəflidir. Moskva Paşinyan hökumətinə etibar etmir. Bu vəziyyət Qarabağ münaqişəsinə də təsir edir. Belə situasiyalarda əvvəl-axır nə isə başlayır. Proseslər göstərir ki, Azərbaycanın indi silahlanma sahəsində üstünlükləri var və bu üstünlük hələ də davam edir. Başqa problem isə odur ki, bu konflikt sonsuza qədər belə davam edə bilməz. Nəticə olmasa savaş qaçılmazdır".

Burada geosiyasi amillərə də xüsusi nəzər salmaq lazım gəlir. Məsələ burasındadır ki, Qərb və Rusiya arasında münasibətlərin daha da kəskinləşdiyi bir vaxtda Kremlin Azərbaycan, Türkiyə kimi ölkələrlə əlaqələrin dərinləşməsinə ehtiyacı daha da artır. Rusiyaya indiki şəraitdə daha böyük yük olan Ermənistana görə isə Kreml adları çəkilən ölkələrlə əməkdaşlığın genişləndirilməsini dayandırmaq niyyətində deyil. Elə bunun nəticəsidir ki, Rusiya Türkiyəyə Suriyada hərbi əməliyyatları istədiyi formada həyata keçirməsi üçün bütün imkanları tanıyıb. Bu mənada, Qarabağda da Azərbaycanın hərbi əməliyyatlara başlaması, hətta bu məsələdə Türkiyədən müəyyən yardımlar ala bilməsinə Moskvanın hansısa müqavimət göstərməsi gözlənilmir. Beləliklə, qeyd edilənlərdən aydın olur ki, Qarabağ münaqişəsinin həlli istiqamətində geosiyasi müstəvidə tamamilə yeni bir vəziyyət yaranır. Bu vəziyyətdə Azərbaycanın mövqeləri güclənməyə doğru getdiyi halda, Ermənistanda bunun tam əksi müşahidə olunur. Hesab edilir ki, yaranmış vəziyyətdə real addımlar atılması Qarabağ münaqişəsinin dinc müstəvidə həllini tezləşdirə bilər. Bu da bölgədə maraqlı qüvvələrin, o cümlədən Rusiyanın özünün maraqlarına tam cavab verir. Əks halda, yuxarıda qeyd olunduğu kimi, Moskva Azərbaycanın hərbi əməliyyatlara start verməsinə hansısa formada müqavimət göstərəməyəcək.

Maraqlıdır ki, Ermənistanda da hadisələrin məhz bu səpkidə inkişaf edə biləcəyindən ciddi narahatlıq ifadə olunur. Məsələn, "Sputnik Ermənistan"a müsahibəsində "DQR prezidentinin" məsləhətçisi Tiqran Abramyan bu xüsusda bildirir: "Dağlıq Qarabağ münaqişəsi zonasında nisbi sakitlik qalır, ancaq vəziyyət istənilən vaxt dəyişə bilər". Onun sözlərinə görə, Azərbaycan indi çox intensiv silahlanır və siyasi qərar qəbul ediləndən sonra uzun müddət gözləmək lazım gəlməyəcək: "Bakı öz arsenalını aktiv şəkildə yeniləyir, yeni silahlar da alınacaq. Bundan başqa, vaxtaşırı hərbi təlimlər və başqa hərbi tədbirlər keçirilir, mühəndis-istehkam işləri aparılır". Abramyan Azərbaycan ordusunun gücünü və yüksək döyüş hazırlığını etiraf edib. O qeyd edib ki, vaxtaşırı təmas xəttinin müəyyən dərinliyində Azərbaycanın hərbi gücləri və hərbi texnikasını görmək olar. Bu fonda həmin texnikadan intensiv hərbi əməliyyatların gedişində istifadə erməni tərəfi üçün yaxşı heç nə vəd etmir.

Ekspertlər hesab edir ki, məhz bu durumda Ermənistan artıq danışıqlar prosesində nəticəsi olan addım atmaqla savaşı əngəlləyə bilər. Özü də burada İrəvan nəzərə almalıdır ki, indi böyük güclər də bu məsələdə nəticə əldə olunmasında Azərbaycanın mövqeyini müdafiə edir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya iqtisadiyyatında baş verən proseslər hələ də maliyyə sektorunda qeyri-sabit vəziyyətin hökm sürdüyünü göstərir. Belə vəziyyət bir sıra ölkələrdə milli valyutanın ucuzlaşması, inflyasiya həddinin qalxmasına təsirsiz ötüşmür. Məsələn, qonşu Türkiyə, İranda maliyyə sahəsində baş verənlərə nəzər salıb bunun real təsdiqini görmək mümkündür. Rusiya və bir sıra MDB ölkələrində də maliyyə sektorunda vəziyyət sabit sayıla bilməz.**

# Manatın sabitliyinə Prezidentin və beynəlxalq ekspertlərin üst-üstə düşən iki baxışı...

Azərbaycana gəlincə, ölkəmiz bu istiqamətdə daha yaxış mövqe sahibi sayıla bilər. Xüsusən də proseslərin real gedişi göstərir ki, qarşıdakı dövr ərzində milli valyuta, inflayasiya həddi hökumət tərəfindən nəzərdə tutulan həddə olacaq.

Yeri gəlmişkən qeyd edək ki, bu mövzuya Prezident İlham Əliyev Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edərkən sakinlərlə görüşündə də toxunub. Dövlət başçısı qeyd edib ki, ölkənin indiki iqtisadi və maliyyə vəziyyəti manatın sabitliyi ilə bağlı heç bir problem gözlənilmədiyini deməyə əsas verir: "Biz ölkəmizi gücləndiririk, beynəlxalq mövqelərimizi möhkəmləndiririk, hərbi gücümüzü artırırıq, sosial məsələlərin həllinə çalışırıq. Son dövrdə imzaladığım fərmanlar doğrudan da həm təsirlidir, həm əhəmiyyətlidir, həm də ki, bizim siyasətimizi göstərir. Deyə bilərəm ki, bu fərmanlara başqa ölkələrdə rast gəlinmir. Məsələn, tutaq ki, problemli kreditlər nədən qaynaqlandı? Devalvasiyadan. Devalvasiya nəyə görə baş verdi? Neftin qiyməti 4 dəfə azaldı, gəlirlərimiz, manatın məzənnəsi aşağı düşdü və insanlar bundan əziyyət çəkdilər. Maksimum çalışırdıq ki, vəziyyəti sabitləşdirək, sabitlik olsun, manat sabitləşsin". Ölkə başçısının sözlərinə görə, artıq uzun müddətdir ki, manat sabit olaraq qalır: "Bizim indiki iqtisadi və maliyyə vəziyyətimiz onu deməyə əsas verir ki, manatın sabitliyi ilə bağlı heç bir problem gözlənilmir. İqtisadi, maliyyə imkanı artdıqca biz, ilk növbədə, səylərimizi problemli kreditlərin həllinə yönəltdik və bunu həll etdik, özü də ən yüksək səviyyədə".

Beynəlxalq miqyasda da təsdiqlənir ki, Azərbaycanda atılan addımlar nəticəsində ölkədə milli valyutanın kursu sabit qalacaq, inflyasiya nəzərdə tutulan həddə olacaq. Məsələn, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon bu xüsusda bildirir: "Hazırkı dövrdə Azərbaycan iqtisadiyyatında pozitiv trendlər qeydə alındığını görürük. Ötən 1-2 ildə iqtisadiyyat özünü 2016-2017-ci illərin neft qiymətlərinin ucuzlaşması və qlobal iqtisadiyyatlardakı proseslərin təsiri nəticəsində baş verən şoklardan bərpa etməyə başlayıb. Həmçinin qonşu ölkələrdə baş verən proseslərin və manatın devalvasiyasının da təsiri az olmayıb. Hakimiyyət əsas islahatları həyata keçirməyə başlayıb. Hazırda biz ölkəyə pozitiv proqnoz vermişik, müsbət artım tempi var və inflyasiya isə nəzarət altındadır. Düşünürəm ki, hökumətin vergi, maliyyə, iqtisadiyyatın şaxələnməsi sahəsindəki islahat səyləri doğru addımdır və bu ölkənin gəlirlərinə birbaşa təsir edir. Mənim ümumi dəyərləndirməmi istəyirsinizsə, deyim ki, pozitiv qiymətləndirirəm". Onun sözlərinə görə, qarşıdakı dövrdə manatın sabit həddə qalacağını gözləmək olar: "Bilirsiniz ki, hər bir ölkədə milli valyutanın məzənnəsi başqa ölkələrlə ixrac-idxal əməliyyatları və bu kimi bir çox faktorlardan asılıdır. Bu baxımdan, sabah məzənnədə nə baş verəcəyini təsəvvür etmək, proqnozlaşdırmaq düzgün olmazdı. Makro fiskal siyasət nəticəsində manatın məzənnəsi sabit qalıb. Artıq bir müddətdir ki, 1 ABŞ dolları 1,7 manat civarındadır. Yəni məzənnə bu gün kifayət qədər stabildir. Düşünürəm ki, hökumət bu situasiyanı nəzarətdə saxlayır".



Digər ekspertlər də bildirir ki, xarici ticarətdə artan müsbət saldo, idxaldan asılılığın azaldılması, enerji resurslarının satışı və digər mənbələr, o cümlədən turizm üzrə ölkəyə daxil olan vəsaitin həcminin artması manatın mövqelərinin daha da möhkəmlənməsinə gətirib çıxaracaq. Digər tərəfdən nəzərə almaq lazımdır ki, artan valyuta ehtiyatları damanatanın möhkəm mövqeyini şərtləndirir. Qeyd edək ki, cari il aprelin 1-nə təkcə Mərkəzi Bankın valyuta ehtiyatları 5 milyard 778,6 milyon dollar təşkil edib. Bu, martın 1-i ilə müqayisədə 16,7 milyon dollar və yaxud 0,3% çoxdur. İlin əvvəlinə nisbətən baş bankın valyuta ehtiyatları 152,9 milyon dollar və yaxud 2,7%, son 1 ildə isə 270,6 milyon dollar və yaxud 4,9% artıb. Dövlət Neft Fonudna toplana vəsaitlərin həcmi isə 40 milyard dolları keçir. Ümumiyyətlə, ilin əvvəlindən ölkənin strateji valyuta ehtiyatları 4,1% artaraq 46,6 milyard dollara çatıb. Bu, tədiyə balansının profisitlə formalaşdığını göstərir.

Digər tərəfdən, Azərbaycanın satdığı təbii qaz həcminin artması da ölkəyə daha çox valyuta vəsaitinin daxil olmasına gətirib çıxarır. Neftin qiymətlərinin getdikcə sürətlə yüksəlməsi isə Azərbaycanın valyuta ehtiyatlarının həcmini sürətlə artırmaqla yanaşı, dövriyyədə dollar kütləsinin artmasına və bununla manatın güclənməsinə rəvac verir. Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə vurğulayır ki, neftin qiymət artımı davam edəcək. Onun sözlərinə görə, dünya bazarında neft qiymətlərinin bahalaşmasına əsas səbəb ABŞ prezidenti Donald Trampın İrana sanksiyaları və İrandan neft idxalına güzəştlərin ləğvi ilə bağlı son açıqlamasıdır. O bildirib ki, dünya bazarında neftin qiymətinin 75 dollara yaxınlaşması sonuncu dəfə ötən ilin oktyabrında müşahidə edilib: "Neftin qiymətinin bu qədər artmasına səbəb olan ikinci amil isə neft ehtiyatlarının azalmasıyla bağlı hesabatdır. OPEC-in yanvar ayından gündəlik neft hasilatını 1.2 milyon barrel azaltmaqla bağlı qərarından sonra həmin ehtiyatlarda olan neft mütəmadi olaraq satışa çıxarıldı. Ehtiyatların azalması ilə bağlı məlumatlar açıqlananda bu, bazar iştirakçıları arasında çox yaxşı qarşılandı. Artıq bazarda tələb-təklif və dünya iqtisadiyyatının inkişaf tempi ona dəlalət edir ki, bazara çıxarılan neft həcmlərini iqtisadiyyat həzm edə bilir. Bu çox yaxşı amildir və neftin qiymətinin artımına stimul verir".

Qeyd edək ki, "Brent" markalı neftin qiyməti dünya bazarında 75 dollara yaxınlaşıb. Qiymətlərin daha da artması gözlənir və bu hal Azərbaycana daha çox valyuta daxil olmasına, manatın isə daha da güclənməsinə gətirib çıxarır.

***Tahir TAĞIYEV***



# Azərbaycan Türkiyədə yeni neft-kimya kompleksinin tikintisinə nə vaxt başlayacaq?

**"SOCAR Turkey" şirkəti Türkiyədə yeni neft-kimya kompleksinin tikintisinə 2020-ci ilin sonunda başlamağı planlaşdırır.**

"Trend"in məlumatına görə, bunu şirkətin layihələr üzrə meneceri Emil Alxaslı Bakıda SOCAR-ın IV beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Ticarət, Logistika, Neft emalı, Neft-kimya" forumu çərçivəsində keçirilən Xəzər və Mərkəzi Asiya Regionlarının Emal və Neft-kimya Sənayesi - Layihələr və Texniki Həllər konfransında deyib.

Onun sözlərinə görə, layihənin dəqiq dəyəri bu ilin sonunda məlum olacaq:

"Kompleksin 2023-cü ilin sonunda istifadəyə verilməsi planlaşdırılır".

**"Qarabağ klanı" ilə mövcud Ermənistan hakimiyyəti arasında çəkişmələrin getdikcə daha da şiddətlənməsi müşahidə olunmaqdadır. Belə görünür ki, baş nazir Nikol Paşinyan özünə əsas təhlükə hesab etdiyi bu klanı tam sıradan çıxarmaqda, onun əsas təmsilçilərini həbsə atmaqla neytrallaşdırmaqda israrlıdır. Bunun üçün isə məlum 1 mart hadisələri indi Paşinyanın əlində "Qarabağ klanı"na qarşı ən güclü silah sayılır.**

# Paşinyan "Qarabağ klanı"nın daha bir iri fiqurunu "boğazladı"...



Məhz belə bir vaxtda bəlli olub ki, "Qarabağ klanı"nın daha bir əsas təmsilçisi yenə 1 mart hadisələri fonunda sıradan çıxarılır. Belə ki, Ermənistanın sabiq daxili işlər naziri, general-polkovnik Vladimir Kasparyan 1 mart terroru ilə bağlı xüsusi istintaq komitəsinə çağırılıb. Ona ölkəni tərk etməmək barədə bildiriş verilib və əmlakına müsadirə qoyulub. Kasparyan istintaqa ifadəsində verilən göstərişi yerinə yetirdiyini deyib. Bununla yanaşı, Kasparyan, həmçinin iş adamından 900 milyon dram rüşvət almaqda şübhəli bilinir. Onun həyat yoldaşının adı isə fırıldaqçılıqda hallanır. Artıq Kasparyanın həbsi qaçılmaz sayılır. Erməni mediası yazır ki, həbsə atılan "Qarabağ klanı"nın təmsilçilərinin buradan çıxmaq şansı yoxdur və misal olaraq "qəssab" ləqəbli general-leytenant Manvel Qriqoryanın aqibəti göstərilir. Ermənistanın müdafiə nazirinin sabiq müavini olan Qriqoryanın məhkəməsi davam edir. Məhkəmə 10 milyon dollar girov qoyularaq generalın müvəqqəti azadlığa çıxmasını rədd edib. Bildirilir ki, bu göstəriş əslində hakimiyyət rəhbərliyindən gəldiyindən, belə bir addım atılıb.

Xatırladaq ki, Ermənistanın 3-cü prezidenti Serj Sarkisyanın silahdaşı və ən yaxın dostu olan keçmiş nazir müavini qanunvericiliyin bir neçə maddəsi ilə qanunsuz silah-sursat saxlamaqda, dövlət əmlakını mənimsəmədə, vergidən yayınmada, çirkli pulların yuyulmasında təqsirkar bilinir. "Qəssab" ləqəbli generalın Ermənistan ordusuna məxsus ərzaq məhsullarını talayaraq daxili və xarici bazarlarda satdığı müəyyənləşib. Bu faktlar sübuta yetirilərsə o, ömürlük azadlıqdan məhrum oluna bilər.

"Qarabağ klanı"nın əsas təmsilçilərindən biri olan Ermənistanın ikinci prezidenti Robert Köçəryanı da ömürlük həbs gözləyir. Qeyd edək ki, onun qalmaqallı rüşvət cinayəti üzrə növbəti məhkəmə prosesi 6 aydan sonra keçiriləcək. Məlumata görə, İrəvan şəhərinin Şenqavit rayon məhkəməsində iş adamı Silva Ambarçumyanın Robert Köçəryana qarşı 2 milyon dollar rüşvətalma iddiasının detalları ilə bağlı hazırlıq iclası keçirilib. Məhkəmədə Köçəryanın vəkillər komandasının üzvü Artyom Orbelyan bildirib ki, Silva Ambarçumyanın verdiyi ifadələr şər-böhtan xarakteri daşıyır. Onun şəxsən Köçəryanla heç bir əlaqəsi olmayıb və onlar heç vaxt görüşməyiblər: " Paşinyan keçmiş rəqiblərindən qisas alırsa, o zaman nə üçün ölkənin digər rəhbər şəxslərinə qarşı ittihamlar irəli sürülmür?" Qeyd edək ki, ərəb ölkələrində biznesi olan Silva Ambarçumyan keçən ilin noyabrında Ermənistana dəvət olunaraq xüsusi istintaq komitəsində dindirilib. Sonra onun Robert Köçəryanla üzləşməsi prosesi təşkil edilib. Silva Ambarçumyan bir daha bildirib ki, Köçəryan sabiq xarici işlər naziri Vardan Oskanyanın vasitəçiliyilə 1 mart hadisələrindən əvvəl ondan 2 milyon dollar alıb. Robert Köçəryanın cinayət materialına bu maddə də əlavə edilərsə, o zaman onu ömürlük həbs gözləyir. Burada onu da xatırladaq ki, 1 mart olaylarına görə artıq Robert Köçəryan, eləcə də sabiq müdafiə naziri Seyran Ohanyan, keçmiş baş nazirin müavini Armen Qevorkyan və KTMT-nin sabiq baş katibi Yuri Xaçaturova qarşı açılan cinayət işi üzrə aparılan ilkin istintaq prosesi başa çatıb. Ermənistanın Xüsusi İstintaq Xidməti bildirir ki, istintaq nəticəsində əldə olunan dəlillər adıçəkilən şəxslərə qarşı iddianamənin hazırlanması və cinayət işinin məhkəməyə ötürülməsi üçün kifayət edir.

Xatırladaq ki, Köçəryan, Ohanyan və Xaçaturov 2008-ci ilin martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və Ermənistanın konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunur. Armen Qevorkyan isə küllü miqdarda rüşvət almaqda, çirkli pulların yuyulmasında, konstitusiya quruluşunu devirmək cəhdində iştirakda və 1 mart hadisələrilə bağlı ədalət mühakiməsinə əngəl törətməkdə ittiham edilir.

Erməni mediası yazır ki, növbə tezliklə Serj Sarkisyana da çatacaq. Artıq bunun üçün ilkin zəmin də hazırlanır. Məsələn, sosial şəbəkələrdə hakimiyyətə yaxın şəxslər indi bu məqamı aktiv şəkildə gündəmə gətirirlər ki, Serj Sarkisyan indiyədək hər hansı cinayəti törətməkdə ittiham edilmirsə, cinayətkar deyilsə, o zaman inqilab nə üçün baş verib. Bu suala cavab verərkən Paşinyan artıq keçmiş iqtidarın yüksək vəzifəli şəxslərinə qarşı açılan onlarla cinayət işinin olduğunu xatırladıb: "Bu gün Manvel Qriqoryan, Robert Köçəryan həbs edilib, Miqran Poğosyan və digər sabiq vəzifəlilərə qarşı axtarış elan olunub. Mənim üçün prinsip birdir, heç kim himayəli olmayacaq, hamı qanun qarşısında birdir. Ancaq mənə verilən bu sualda Serj Sarkisyanın hər hansı iş üzrə itiham edilib-edilməyəcəyindən asılı olmayaraq, başqa bir kontekst də var. Mən bu sualın sətir altında aşağıdakı məqamı başa düşürəm: Serj Sarkisyanla gizli razılaşmanızın olması mümkündürmü? Dəqiq deyirəm, mən bu cür oyunlara cəlb edilə bilmərəm, gəlin bunu birmənalı vurğulayaq. Deyə bilmərəm ki, Serj Sarkisyan hər hansı bir işdə ittiham ediləcək, ya yox. Ancaq zəmanət verə bilərəm ki, ittiham edilməsi üçün əsaslar olarsa, hər hansı siyasi maneə olmayacaq".

Ermənistan parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanov bütün bunların qisas məqsədilə atılan addımlar olduğunu bildirib. Onun sözlərinə görə, Nikol Paşinyan hələ də "inqilab şinelini çıxarmayıb" və özünü baş nazir kimi aparmır: "Ermənistanda ötən ilin aprelində şantaj və təhdid yolu ilə dövlət çevrilişi baş verib. Artıq bir ildir fəaliyyət göstərən yeni hökumətin başçısı isə adekvat davranış nümayiş etdirmir. İndi ölkədə hökumət deyil, Nikol Paşinyanın rəhbərlik etdiyi inqilab komitəsi mövcuddur". Şarmazanovun sözlərinə görə, həqiqi hökumət başçısı əvvəlki hakimiyyətin nailiyyətlərindən istifadə edərək Ermənistanda quruculuq işləri aparmalı idi. Lakin yeni hökumət əldə olunmuş uğurların məhv edilməsi yolunu tutub.

***Nahid SALAYEV***

**Ermənistanın baş naziri Nikol Paşinyan Ukraynada prezident seçkilərinin qalibi Vladimir Zelenskiyə Rusiya Prezidenti Vladimir Putinlə dil tapmağın yolları barədə məsləhətlər verib. Bu haqda danışan Paşinyanın sözlərinə görə, Zelenski açıq və doğru danışsa, Putinlə ümumi dil tapacaq:**

# Paşinyanın Zelenskiyə Putinlə davranış öyrətməsinin pərdəarxası komik və ciddi mənaları...

## *Arzuxan Əlizadə: "Bu onu göstərir ki, Paşinyan siyasi baxımdan naşı və təcrübəsizdir"*



*"Ola bilər ki, Putin haçansa onu bərk danlayıb və o buna görə pis vəziyyətə düşüb"*

"Mən hesab etmirəm ki, onun üçün Putinlə ünsiyyət qurmaq mürəkkəb olacaq. Burada şərtlər var: əgər sözünü birbaşa desən, dürüst olsan, aldatmasan, çətin olmayacaq. Sadəcə olaraq birbaşa və dürüst danışmaq lazımdır. Fikrimcə, istənilən adam bunu qiymətləndirər, əgər görsə ki, həmsöhbəti onu nədəsə aldatmağa çalışmır, nə barədəsə boşboğazlıq etmir, nəyisə təhrif etməyə çalışmır. Düşünürəm ki, bu, bütün münasibətlərdə çox düzgün maneradır".

Öz növbəsində, Rusiya liderinin köməkçisi Yuri Uşakov deyib ki, Putin hələlik Zelenski ilə görüşüb danışıqlar aparmağa hazırlaşmır. Uşakov qeyd edib ki, əvvəlcə seçkilərin rəsmi nəticələrinin açıqlanmasını gözləmək lazımdır, sonra isə Ukraynanın yeni prezidentinin davranışlarına baxacaqlar.

Paşinyanın başqa dövlətin yeni seçilən dövlət başçısına bu sahədə məsləhət verməsi qəribə görünməyə bilməz. Sanki Paşinyan illərin təcrübəli siyasətçisidir və dünyada böyük söz sahibidir ki, durub belə məsləhətlər verir. Əslində, Paşinyanın Putinlə münasibətlərinin o qədər də yaxşı olduğunu demək mümkün deyil. Hər halda, nə qədər gizlətməyə çalışsa da, tərəflər arasında bir sıra fikir ayrılıqları var. Ancaq bütün bunlara yanaşı, bu məsələdə Paşinyanın Ukraynanın yeni seçilən prezidentinə məsləhət verməsinə anlam vermək çətindir. Ola bilsin, Paşinyan bununla göstərmək istəyir ki, guya Putinlə münasibətləri normaldır. Ya da göstərmək istəyir ki, bu məsələdə buraxdığı səhvlərə görə tənbeh olunub. Hər halda, onun belə müraciət etməsinin arxasında nə dayanır? Belə tövsiyə ilə çıxış etməyin mənası nədir?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bunda Paşinyanın bir neçə məqsədi ola bilər:** "Əvvəla dövlət başçısının belə açıq formada məsləhətlə çıxış etməsi siyasətçiyə yaraşan hal deyil. Özü də Paşinyan ranqında olan dövlət başçısı bu haqda danışmasa yaxşıdır. Danışırsa, özünü daha gülünc vəziyyətə qoyur. Hansısa təkbətək görüşdə Paşinyan belə bir tövsiyə ilə çıxış etsəydi, bunu anlamaq olardı. Ancaq bu formada danışmaq və bunu anlamaq mümkün deyil. Bu onu göstərir ki, Paşinyan siyasi baxımdan naşı və təcrübəsizdir. Ancaq naşı dövlət başçısı bu cür çıxış edə bilər. Görünür, Paşinyan öz aləmində fikirləşir ki, Zelenski siyasi baxımdan təcrübəsizdir, o üzdən belə tövsiyə ilə çıxış edir. Ya da ola bilər ki, Putin haçansa Paşinyanı bərk danlayıb və o buna görə pis vəziyyətə düşüb. Daha sonra nəticə çıxarıb. İstəmir ki, Ukraynanın yeni prezidenti onun vəziyyətinə düşsün. Yaxud da bununla özünü Putinin yanında yaxşı göstərmək istəyir. Buna rəğmən, Paşinyanın Putinlə münasibətlərinin yaxşı olduğunu demək çətindir. Ona görə ki, Paşinyan Putinin dostu, keçmiş prezident Robert Köçəryanı hələ də həbsdə saxlayır. Bütün hallarda, Paşinyanın kiməsə sözügedən məsələ ilə bağlı açıq məsləhət verməsi gülünc haldır".

***Vidadi ORDAHALLI***

# Eldar Əzizov Bakının lift təsərrüfatında korrupsiya proseslərini gündəmə gətirdi - bir səs-küylü toyun söz-söhbəti yenidən qayıdır...

**Məişətimiz üçün elə vacib xidmət növləri var ki, onlar bizim həyatımızın rahatlığını təmin etməlidir. Lakin bəzi hallarda biz bunu hiss edə bilmirik. Çoxmərtəbəli binalarda yaşayan Bakı sakinlərinin ən çox ehtiyacı, tələbatı olan liftdir. Çox təəssüf ki, bu gün Bakının lift təsərrüfatının vəziyyəti elə də ürəkaçan deyil. Şəhərimizin yaşayış binalarında tez-tez xarab olan köhnə liftlər hələ də qalmaqdadır.**

*"Təsdiqlənən yeni mexanizmlər məhz Bakı Lift İdarəsinin də fəaliyyətində müəyyən qədər müsbət dəyişikliyə səbəb olacaq"*

*Rəşad Həsənov: "Həm tez-tez baş verən lift qəzaları, həm bu istiqamətə ayrılan vəsaitlərin səmərəsiz xərclənməsi, həm də bu istiqamətdə korrupsiya hallarının baş verməsi hər kəsi narahat edir"*




Bu da sakinləri ciddi şəkildə narahat edir. Sakinlərin bundan narahat olmağa əsası var. Bilirik ki, dəfələrlə liftin xarab olması, onu idarə edən trosun qırılması nəticəsində liftdə sonu ölümlə nəticələnən hadisələr baş verib. Qəzalı liftlərin insanlara yaşatdığı faciələr bu sahəyə keçmişdə rəhbərlik edənləri deyəsən heç narahat etməyib də. Çünki narahat etsəydi, dövlətin lift təsərrüfatına ayırdığı vəsaitləri şəxsi maraqlarının təminatına deyil, bu sahəyə yönəldər, istifadəçilərin rahatlığını təmin edərdilər.

Gizlin deyil ki, şəhərimizin lift təsərrüfatında bir sıra neqativliklər, konkret olaraq, korrupsiya halları baş verib. Bakı Lift İdarəsinin keçmiş baş direktoru Qüdrət Şükürovun bu sahədəki yarıtmaz fəaliyyəti haqqında kifayət qədər fakt mövcuddur. Başı dövlətin pullarını havaya sovurmağa qarışan Q.Şükürovun yarıtmaz fəaliyyəti şəhərimizin lift təsərrüfatını iflic vəziyyətə salıb.

Qeyd edək ki, son illər medianın gündəmində olan Q.Şükürovun adı korrupsiya cinayətlərində hallandırılıb. O, medianın gündəminə əsasən qızına etdiyi bahalı toyla gəlib. Belə ki, Bakı Lift İdarəsinin keçmiş baş direktoru Q.Şükürovun qızı Aysel Şükürovaya 400 min dollara başa gələn toy etdiyi barədə məlumatlar mətbuatda yer alıb. Onun qızının toyuna 400 min dollar xərclədiyi və 40 min dollarlıq "Love Story" çəkdirdiyi barədə yazılarla mətbuatla maraqlanan hər kəs tanışdır. Onun qızının Maldiv adalarında bal ayı keçirməsi ilə bağlı xəbərlər də yayılıb və bunu qızı Aysel Şükürova da təsdiqləyib.

Məlum olduğu kimi, fəaliyyətində ciddi nöqsanlara yol verdiyinə və dövlətin pulunu şəxsi məqsədlər üçün, biznesini genişləndirmək, var-dövlətini artırmaq məqsədilə xərclədiyinə, məsul olduğu sahəyə ciddi maddi ziyan vurduğuna görə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) hazırkı başçısı Eldar Əzizov tərəfindən xeyli müddət əvvəl vəzifəsindən azad edilib. "Bakılifttəmir" İstehsalat Birliyinə rəhbərlik etdiyi müddətdə Q. Şükürovun bu sahənin inkişafına heç bir səmərə vermədiyi aydın görsənir.

Onu da bildirək ki, Bakı Şəhər İcra Hakimiyyətində inventarlaşdırma işlərinin aparılması ilə bağlı hüquq-mühafizə orqanlarının iştirakı ilə komissiya yaradılmışdı və yoxlamalar İcra Hakimiyyətinin bütün strukturlarında, o cümlədən, Bakı Lift-Təmir İstehsalat Birliyində aparılırdı.

Mətbuatda qeyd edilənə görə, bir sıra korrupsiya əməllərində ittiham edilən Q.Şükürovun korrupsiya cinayətlərinin araşdırılması ilə bağlı cinayət işi açılıb.

Məlum olduğu kimi, ölkənin lift sisteminin inkişafı dövlətin diqqət mərkəzindədir və Prezident İlham Əliyev 5 fevral 2019-cu il tarixində "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyətində aparatın və struktura daxil təsərrüfat xidmətlərinin rəhbərlərinin iştirakı ilə iş forma və metodlarına, eləcə də neqativ hallar və korrupsiya ilə mübarizə məsələlərinə həsr olunan geniş müşavirə keçirilib. Müşavirədə İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ölkə başçısının apardığı çoxşaxəli islahatların bir çox neqativ halların qarşısını aldığını və bu sahələrdə şəffaflığın təmin olunduğunu bildirib.

O, Prezident İlham Əliyevin dövlət qulluqçuları qarşısında qoyduğu tələblərə toxunaraq bildirib ki, hər bir rəhbər işçi öz fəaliyyətində şəffaflıqla çalışmalı, hər hansı korrupsiya hallarına və pozuntulara yol verməməli, dövlət büdcəsindən səmərəli, düzgün istifadə etməli, ən vacibi isə bütün işlərini "təmiz əllərlə" görməlidir. İcra başçısı hələ də bəzi neqativ halların mövcud olduğunu qeyd edib, belə hallara qarşı ciddi mübarizə aparılacağını və aşkarlanan faktlar barədə hüquq-mühafizə orqanlarına müraciət ediləcəyini bildirib.

Struktura daxil olan xidmətlərin işlərindən danışan Eldar Əzizov bildirib ki, ölkə başçısının Bakı şəhərinin lift təsərrüfatının yenilənməsi ilə bağlı müvafiq sərəncamının icrası məqsədilə Almaniya Federativ Respublikasının "Wittur Holding GMBH" şirkəti ilə müqavilə imzalanmasına hazırlıq gedir.

**Bakının lift təsərrüfatında neqativ halların mövcudluğunu və bu hala qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsinə ehtiyac olduğunu deyən iqtisadçı-ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, bu sahədə korrupsiya əməllərinə yol verən keçmiş rəhbərə qarşı daha sərt tədbirlər görülməlidir.** "Bu istiqamətdə bir neçə məsələyə toxunmaq istərdim. Birincisi, çox təəssüf ki, hansısa rəhbərlər korrupsiya haqqında danışanda biz də həmin qurumlarda bu cür neqativ halların olduğuna dair fikirlər ifadə etməyə çalışırıq. Bakı Lift-Təmir İstehsalat Birliyinin fəaliyyəti çox nöqsanlı idi və əksər dövlət qurumlarının da fəaliyyətində ciddi korrupsiya faktları var. Bu istiqamətdə kənar nəzarətin təmin olunması əsas məsələlərdən biridir. Burada həm ictimai nəzarət olmalıdır, həm də bu prosesdə müvafiq funksiyanı həyata keçirən Hesablama Palatasının aktivliyi artmalıdır. Dövlət vəsaitlərinin xərclənməsi zamanı ciddi nöqsanlara yol verilir. Bakının lift təsərrüfatında olan nöqsanların bu gün səsləndirilməsi, eyni zamanda, indiyə qədər bu istiqamətdə səsləndirilən iradların həqiqiliyini təsdiq edən faktdır. Məsələ ondan ibarətdir ki, bu günə qədər Bakı Lift-Təmir İstehsalat Birliyinin fəaliyyəti zamanı dövlətə dəymiş zərər necə ödəniləcək? Söhbət təkcə bundan sonra bu sahədə korrupsiya hallarına son qoyulmasından getmir, həm də dəyən zərərin ödənilməsindən gedir. Biz dəfələrlə müxtəlif dövlət qurumlarının rəsmilərindən korrupsiya ilə mübarizə ilə bağlı çağırışlar eşidirik, lakin sonra həmin qurumların fəaliyyətini analiz edəndə məlum olur ki, sadəcə, bu çağırışların çoxu formal xarakter daşıyır. Ümid edirəm ki, bu iradlar artıq tam olaraq nəzərə alınacaq və qurumun fəaliyyətində növbəti dövrlərdə şəffaflıq təmin olunacaq. Ancaq yalnız çağırışla bu problem bitmir, burada ciddi cəza mexanizmləri olmalıdır. Bundan əvvəl ciddi nöqsanlara yol verən və ictimai vəsaitləri mənimsəyən keçmiş rəhbər şəxslərdən bu vəsaitlərin dövlət büdcəsinə qaytarılması mexanizmi müəyyən edilməli və o vəsaitlərin geri qaytarılması təmin edilməlidir. Bu, büdcənin, xalqın vəsaitidir və son qəpiyinə qədər qaytarılmalıdır".

R.Həsənov onu da bildirdi ki, Bakının lift problemi 20 ildən artıqdır mövcuddur. Onun sözlərinə görə, ancaq nədənsə bu məsələyə soyuq yanaşılır, bu məsələyə adekvat reaksiya ortaya qoyulmur və nəticədə də xüsusilə Bakının köhnə yaşayış binalarında liftlə bağlı kəskin problem yaranıb: "Bu gün Bakının köhnə yaşayış binalarında istifadə edilən köhnə liftlər vətəndaşın həyatını, məişətini daha da çətinləşdirir. Vətəndaşlar bu liftlərdən istifadə etməklə həyatlarını risk altına qoyurlar. Həm tez-tez baş verən lift qəzaları, həm bu istiqamətə ayrılan vəsaitlərin səmərəsiz xərclənməsi, həm də bu istiqamətdə korrupsiya hallarının baş verməsi hər kəsi narahat edir. Hazırda tender haqqında yeni mexanizmin təsdiqinə başlanıb. Təsdiqlənən yeni mexanizmlər məhz Bakı Lift İdarəsinin də fəaliyyətində müəyyən qədər müsbət dəyişikliyə səbəb olacaq" - deyə R.Həsənov vurğuladı.

***İradə SARIYEVA***

# Yanmış "Diqlas"ın sahibi Araz adlı şəxsə qarşı icarədar sahibkarın 500 min dollarlıq iddiası...

**Bəzi yerli KİV-in məlumatına görə, Rübabə Vəliyeva adlı sahibkar "Diqlas" və "Lotos" ticarət mərkəzlərinin rəhbəri Araz Rəhimova qarşı şok ittihamlar irəli sürüb. A.Rəhimovu qanunsuz əməllərdə ittiham edən sahibkar qadın deyir ki, ticarət mərkəzinin rəhbəri ona 500 min dollarlıq ziyan vurub. Qeyd edək ki, məlum yazıda A.Rəhimov ötən ay yanıb külə dönən "Diqlas" Ticarət Mərkəzinin rəhbəri kimi də təqdim edilir.**

Lakin A.Rəhimov mediaya verdiyi açıqlamada bildirib ki, o, yanan "Diqlas"ın bir hissəsinə rəhbərlik edib. Şikayətçi R.Vəliyeva deyir ki, 2010-cu ildən "Lotos" TM-də gəlinlik paltarlarının satışı və kirayəsi ilə məşğul olub: "2015-ci ildə dolların bahalaşmasından sonra işlərim pisləşdi. Həmin vaxta qədər mağazanın icarə haqqında heç vaxt gecikmə yaşanmamışdı. Lakin işlərin zəifləməsindən sonra icarə haqqını bir neçə ay vaxtında verə bilmədim. Həmin dövrdə oğlum ağır xəstəliyə tutuldu. Əlimdəki pulu da onun əməliyyatına və müalicəsinə xərclədim. "Lotos"un rəhbəri Araz Rəvimovdan icarə haqqını ödəmək üçün vaxt istədim. O isə qapını plomplayıb mənə vaxt verdi. Təxminən bir həftə sonra icarə haqqını gətirdim. Gördüm ki, mağazamda təmizlik işləri aparılır. Mağazada 500 min dollarlıq malım var idi. Hamısı boşaldılmışdı. A.Rəhimov mənə dedi ki, sənin mağazada heç nəyin olmayıb".

R.Vəliyevanın sözlərinə görə, onun malını özündən xəbərsiz yığıb satıblar: "Mənim cəmi 3260 manat icarə haqqı borcum var idi. Bu məbləğə görə mağazamdakı 500 min dollarlıq malımı çıxarıb satıblar. Bu, özbaşınalıqdır, özgə malını mənimsəməkdir".

Xanım sahibkar qeyd edir ki, daha sonra məsələ ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidovun qəbulunda olub. M.Seyidov onu dinləyib və şikayətinin araşdırılması üçün Nizami Rayon Polis İdarəsinin rəisi Nofəl Məhərrəmova tapşırıq verib. Polisin işə qarışmasından sonra R.Vəliyevanın mallarının bir qismi qonşu "Diqlas" TM-də tapılıb. Polis əməkdaşlarının müşayiəti ilə R.Vəliyevanın başqa sahibkarlara satılmış malları aşkarlanıb, şəkilləri çəkilib: "Nofəl Məhərrəmovun tapşırığından sonra bir tədqiqatçı ilə getdik indi yanıb külə dönmüş "Diqlas" Ticarət Mərkəzində üç mağazada mənim mallarımı tapdıq, şəkillərini çəkdik. Oradakı sahibkarlar dedilər ki, onlar geyimlərin kimin olduğunu bilmirlər, gətirib satıblar, onlar da alıblar. Daha sonra getdik "Lotos"da boş mağazanı çəkdik. Müdiriyyət polisin qabağına çıxmadı. Bundan sonra N.Məhərrəmovun qəbulunda Araz Rəhimovla üzləşdik. O, polis rəisinin yanında mənə və rəisə söz verdi ki, məsələni həll edəcək. Demişdi gedib mallarıma baxım, görüm nə çatışmır. Baxdım ki, mallarımın cəmi 10 faizini qaytarıb yerinə qoyublar. Mən də buna görə A.Rəhimova razılaşmadım və mallarımın hamısını tələb etdim".



Sahibkar xanım deyir ki, bundan sonra bütün aidiyyəti qurumlara dəfələrlə şikayət edib, işin araşdırılmasını tələb edib, A.Rəhimovun qanunsuz əməlinə görə cinayət işi açılmasını tələb edib, lakin heç bir nəticə yoxdur.

Xanım sahibkar deyir ki, onun şikayətinə yenidən ədalətli şəkildə baxılmasa, Prezident Administrasiyasının qarşısında özünə qəsd edəcək.

Göründüyü kimi, iri ticarət obyektinin rəhbəri kimi tanınan A.Rəhimovla bağlı olduqca ciddi ittihamlar ortaya qoyulub. Bəs maraqlıdır, iş adamının özünün bu məsələyə münasibəti necədir?

Çox çətinliklə olsa da, A.Rəhimovun özü ilə əlaqə yarada bildik. İş adamı "Bakı-Xəbər"ə fikirlərinin təhrif olunmayacağı təqdirdə danışmağa razılaşdı. Biz də onun fikirlərini olduğu kimi dərc edəcəyimizə söz verdik. A.Rəhimov açıqlamasını media əhlindən gileylə başladı: "Mən bir iş adamıyam. Heç vaxt da reklam olunmağı xoşlamamışam. Mənim adım "Diqlas"ın yanmasından sonra daha çox gündəmə gəlməyə başladı. Dəfələrlə media mənsublarına desəm də, məni yenə də "Diqlas"ın sahibi kimi təqdim edirlər. "Lotos" ticarət mərkəzinə mən rəhbərlik edirəm, amma "Diqlas"ın bir hissəsinə rəhbərlik məndə olub. Yəni mütləq idarəçiliyə sahib deyildim. Görünür, fikirləşirlər ki, yıxılana balta çalmaq lazımdır. Bəziləri fürsətcil davranır, "Diqlas"dakı yanğından sonra belə şantajlara əl atırlar ki, bizdən nəsə qopara bilsinlər".

A.Rəhimov deyir ki, özünü zərərçəkən kimi təqdim edən R.Vəliyevanın şikayət etmədiyi instansiya qalmayıb: "Görüblər ki, şər atır, ona görə də dedikləri təsdiqini tapmayıb. İndi də bu yalanlarını media vasitəsilə cəmiyyətə təqdim edir. Onun belə daş-qaşı varıydısa, satıb elə icarə pulunu verərdi də. Özü dili ilə deyir ki, 3260 manat icarə borcu olub. Gəlin 60 kvadratlıq istənilən bir gəlinlik mağazasını audit edək. Görək ora 500 min dollarlıq mal yığmaq olarmı? O, heç satıcılarının pulunu vermirdi. Bu məsələni bütün polis instansiyaları araşdırıb. Onun icarə borcu vardı, uzun müddət yoxa çıxdı, biz tapıb pulu ala bilmirdik. Axırda məcbur qalıb öz satıcıları və qonşu mağazaların iştirakı ilə onun mallarını aktlaşdıraraq götürdük ki, icarə pulunu gətirəndə qaytaraq. Orada ancaq gəlinlik paltarları olub".

A.Rəhimov deyir ki, bu xanımı əslən naxçıvanlı olan tanınmış iş adamı Bəy Mamedin vasitəsilə tanıyıb: "O vaxt Mamed məndən xahiş etdi ki, qadına 10 min borc verim ki, gedib mal vursun. Baxdım ki, pulu vermək istəmir. Düz bir ildən sonra ondan pulumu istəyəndə dedi ki, bəs bu, Bəy Mamedin pulu deyil? Dedim, ay xanım, Bəy Mamedin pulu mənim kassamda nə gəzir? Mamedə dedim ki, pulun var da, gətir indi sən ver onun əvəzindən, qoy sənə borclu qalsın. Bəy Mamed də qoşuldu ona, başladı mənimlə qırğın etməyə. Həmin pulu iki ilə bu qadından ancaq aldım. Sonra üç ay icarə haqqını vermədi. 3260-a çatanda onun mağazasını bağladım. Dedim pulu gətirməsən mağazanı açmayacam. Başladı şikayətə. Həmin vaxt Nizami rayonunun polis rəisi olan Nofəl Məhərrəmov məni çağırdı ki, bunu yola ver. Gedib Nərimanovun icra başçısının da yanına xahiş etmişdi. Dedim yola verərəm, amma icarə pulunu vaxtlı-vaxtında versin. Bununla da razılaşmadı. Sonra gəldi ki, mənim dükanımdan "Svrovski" qaşlarım götürülüb. Bu şantaj üsulu ilə çalışdı ki, mağazasını açdırsın, qalan borcunu da ödəməsin. Mənim özüm ibadət edən adamam. İndiyə kimi bir adam deməyib ki, Araz müəllimin obyektində kiminsə malı oğurlanıb. Buranın dörd bir tərəfi kameradır. Mühafizə xidmət göstərir, hansı oğurluqdan söhbət gedə bilər? Bütün vasitələrlə ona xəbər göndərdim gəlmədi.

**Məlum oldu ki, bu adam, əslində, borcluların əlindən qaçır ki, onu tapa bilməsinlər. Hamıya da deyirmiş ki, Arazdan pulu alıb, sizin borcları bağlayacağam. Bir ondan soruşun görək, 500 min dollarlıq daş-qaşı Azərbaycana hansı vasitələrlə gətirib? Bunun gömrük bəyannaməsi varmı? Bir sözlə, böhtan və şantajdır".**

*Məhəmmədəli QƏRİBLİ*

**Bu günlərdə Bakının tanınmış məktəblərindən biri olan 162 saylı orta məktəbdə baş vermiş şagird intiharından sonra müxtəlif səviyyələrdə məktəb-şagird, müəllim-valideyn münasibətlərinin müzakirəsi başlayıb. Hamının fikri tam kamil olmasa da, hər kəsin mövqeyində milli təəssübkeşlik, təhsilə yanaşma, cəmiyyətimizin gələcəyi sarıdan bir narahatlıq olduğunu görürük. Əksər müşahidəçilər Təhsil Nazirliyinin son illərdəki təhsil islahatlarının məqbul və ümidverici olması nöqtəsində birləşir, lakin prosesin daha da irəli aparmağı vacib sayırlar. Bu yöndə "Məktəb direktoru necə olmalıdır" müzakirələrindən tarix müəlliminin maraqlı yazısını oxucu müzakirəsinə veririk. Yazılanlarla razılaşmayanlar olarsa, digər reaksiyalara da yer ayıra bilərik. Zəngilan rayonu 4 saylı tam orta məktəbinin tarix müəllimi Quliyev Musa Yusif oğlu yazır:**



# Məktəb direktoru rəhbər yox, məhz idarəedici...

## *Hər bir direktor işi elə qurmalıdır ki...*

"Təhsil cəmiyyətin tərkib hissələrindən biridir. Təhsildən danışarkən ulu öndər Heydər Əliyevin təhsilə, müəllim peşəsinə verdiyi qiyməti, dəyəri mütləq vurğulamaq lazımdır: "Təhsil millətin gələcəyidir", "Təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir", "Mən müəllim peşəsindən üstün peşə tanımıram".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumtəhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür.

Ölkəmiz üçün müasir düşüncəli və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasında ən kütləvi təhsil sahəsi olan ümumi təhsil xüsusi əhəmiyyətə malikdir. Ona görə də ümumi təhsilin səmərəlilik və effektivliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə tələbyönlü şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzinə çəkilən mühüm vəzifə hesab olunmuşdur.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra ümumi təhsilin inkişafına dövlət qayğısı xeyli güclənmiş, onun mütərəqqi dünya təcrübəsi zəminində məqsəd, məzmun və mahiyyət baxımından yenidən qurulması, habelə şagird nailiyyətlərinin qiymətləndirilməsində müasir texnologiyaların tətbiqi istiqamətində islahat xarakterli tədbirlərin həyata keçirilməsinə başlanmışdır. Qeyd olunanları nəzərə alaraq, ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən keyfiyyət dəyişikliklərinə nail olmaq və bu prosesdə yerli təhsil idarəetmə orqanlarının, məktəb pedaqoji kollektivlərinin imkanlarını səfərbər etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 2017-2018-ci dərs ili ölkənin dövlət ümumtəhsil müəssisələrində "Təhsildə keyfiyyət ili" elan olunmuşdur.

Azərbaycan Respublikası təhsil nazirinin 14 avqust 2018-ci il tarixli əmrilə ümumi təhsil (haqqında) sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri təsdiq olunmuşdur. Konseptual xarakter daşıyan ümumi təhsilin müasir tələblərə uyğun inkişafına təminat verən bu əmrdə təhsilin keyfiyyəti ilə bağlı nazirliyin fəaliyyət planında nəzərdə tutulmuş mahiyyətcə inkişafyönümlü tədbirlərin 2018-2019-cu dərs ilində də davam etdirilməsi qeyd olunmuşdur.

XXI əsr həyatımızın bütün sahələrində yeni nailiyyətlərə yol açmış, inkişaf dinamikası durmadan artmaqdadır. Bu dinamika, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də öz əksini tapmışdır. Ölkəmizdə aparılan təhsil islahatı tədrisə və təlimə yeni aspektdə yanaşma tələb edir. Dünyanın bir çox ölkəsinin təcrübəsi əsasında formalaşdırılaraq təhsilin inkişafına yönəldilən bu yeniliklər respublikamızda məqsədyönlü təhsil islahatlarının aparılması, ümumtəhsil məktəblərində uğurlu nəticələrin əldə olunmasına imkan yaratmışdır.

Müstəqillik qazandığı gündən inkişaf edən Azərbaycan dövləti bütün sahələrdə fəaliyyət göstərərək özünü dünyanın qabaqcıl ölkələri ilə bərabər səviyyəyə çatdırmağa çalışır. Qloballaşan dünyada inteqrativliyin qorunub saxlanması, nailiyyətlərə doğru irəliləmək, uğurlar əldə etmək üçün təhsilin rolu əsas vasitələrdən biri kimi hələ də öz aktuallığını qoruyub saxlamaqdadır.

Dünyanın mənzərəsi dəyişdiyi kimi, onun mühüm atributlarından biri olan təhsil də dəyişir. Cəmiyyətin böyük irəliləyişlərinin fonunda təhsil də, məktəb də daha çox inkişafyönümlü xarakter alaraq nəinki onu müşayiət edir, eyni zamanda, qabaqlayıcı ideyaları, tədbirləri ilə ona töhfələr verməklə irəliləyişlərinə yol açır. Ölkəmizin də təhsil həyatında bu dəyişiklik baş verməkdədir. Müasir texnoloji yeniliklərlə əhatə olunduğumuz dünyada hər bir cəmiyyətin inkişafı, ilk növbədə, müasir tələblərə uyğun yüksək bilik və bacarıq potensialına malik kadrların mövcudluğundan asılıdır. Bu səbəbdən də Azərbaycan hökuməti vətəndaşları üçün dünya standartlarına cavab verən yüksək səviyyəli təhsil imkanlarını yaratmaq istiqamətində ciddi addımlar atmaqdadır. Bu addımlar Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında olan (2013), "Azərbaycan Respublikasının Milli İqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndən (2016) irəli gələn vəzifələrin həlli istiqamətində islahat tədbirləri kimi həyata keçirilir. "Təhsil haqqında" Qanunda edilmiş dəyişikliklər də ölkə vətəndaşlarının təhsil şəraitini daha da yaxşılaşdırmaq missiyasından irəli gəlir.

Məlum olduğu kimi, islahatdan irəli gələn vəzifə kimi təhsilin müxtəlif pillə və səviyyələri üzrə keyfiyyət standartlarının hazırlanması üzərində işlər davam etdirilir. Bu standartların hazırlanıb istifadəyə verilməsi fəaliyyətimizi keyfiyyət baxımından izləməyə, dəyərləndirməyə imkan verəcək. Lakin nəzərə almaq lazımdır ki, bu gün təhsil sahəsində müxtəlif səviyyələr üzrə standartlardan, eləcə də mexanizmlərdən istifadə olunur. Biz onların əsasında məqsədlərimizi, gözlənilən müvafiq nəticələrimizi konkretləşdirə və fəaliyyət strategiyalarımızı qura bilirik. İndiki halda mövcud imkanlardan daha səmərəli istifadə edərək az risqlərlə nəticələrə çatmaq üçün strategiyalar qurmalı, əldə olunan nəticələr əsasında ciddi təhlillər aparmalıyıq. O zaman təhsilin bir atributu kimi keyfiyyət amilindən daha uğurla istifadə edə biləcəyik.

Qlobal dünyanın inkişafı məktəbin qarşısında daha ciddi vəzifələr qoyur. Başqa sözlə, məktəb gənc nəslin inkişafını təmin edən, onun kreativ bacarıqlarının yaranmasına imkan və şərait yaradan bir müəssisəyə çevrilir. Bu müəssisənin idarəedicisi məktəb direktorudur. Rəhbəri yox, məhz idarəedicisidir. Təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu bir vaxtda ümumtəhsil müəssisələrində inkişafa xidmət edən mühitin yaradılması, formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu işdə məktəb direktorlarının üzərinə böyük məsuliyyət düşür. Məktəb direktoru müasir təhsildə çox vacib aparıcı qüvvədir. Hər bir direktor işi elə qurmalıdır ki, yaradılan şərait nailiyyətlərin artmasına xidmət etsin. Konkret olaraq qeyd etmək lazımdır ki, şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlər arasında, bütün pedaqoji kollektiv üzvləri arasında səmimiyyət, sağlam münasibət olmalıdır. Və bu münasibət məktəb rəhbərliyi tərəfindən yaradılmalıdır.

Məktəbdə inkişafın əldə edilməsi təhsildə keyfiyyətin artırılması istiqamətində addımlar atılması, müəllim-şagird münasibətlərinin normal şəkildə qurulması, dünya təhsil sistemində baş verən yeniliklərdən bəhrələnmə və digər bu kimi məsələlərlə bağlıdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsində ən vacib şərtlərdən biri və əsası məktəbdə idarəetmənin demokratik ruhda, demokratik qaydada təşkil edilməsidir. Bu mühitin yaradılması birbaşa məktəb direktorunun işidir. Heç kim məktəb direktoru doğulmur, əsl direktor olmaq isə mümkündür. Məktəbin demokratik idarə edilməsində konkret qayda, "resept" yoxdur. Bu işdə mövcud şərait nəzərə alınmaqla, müxtəlif variantlardan istifadə edilə bilər. Əsas məsələ direktor başda olmaqla məktəb kollektivinin işi düzgün qurması, yeniliyin tətbiq edilməsidir. Əslində, hansı yeniliyin tətbiq edilməsindən asılı olmayaraq, məktəbdə uğurun qazanılması birbaşa işin qurulması səviyyəsindən və idarəetmənin təşkilindən asılıdır.

Təhsildə keyfiyyətin artırılmasında mühüm şərtlərdən biri də məktəb-müəllim-valideyn münasibətlərinin düzgün, normal qurulmasıdır. Məktəbin qarşısında duran vəzifələrin yerinə yetirilməsində, həyata keçirilməsində məktəbin valideynlərlə əməkdaşlıq etməsinə xüsusi ehtiyac yaranır. Təhsilin keyfiyyətli olması valideynlərlə əlaqələrin davamlı olmasından çox asılıdır. Məktəb, ilk növbədə, fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi bu əlaqələrin yeni xarakter almasına çalışmalı, valideynlərlə ardıcıl maarifləndirmə işləri apararaq, onların məlumatlı fəal bir icmaya çevrilməsinə səy göstərərək məktəbin işlərinin planlaşdırılması, təşkili və idarə olunmasında onların maraqlı olan tərəf kimi əməkdaşlığının yaranmasına nail olmalıdır.

**Bu mənada məktəb öz tərəfdaşı ilə əlaqələrinin sıx olmasında maraqlı tərəflərdən biri kimi daha fəal olmalı, təşkilatçı, maarifləndirici funksiya daşımaqla fəaliyyətini qurmalıdır. Bu tədbirlərin həyata keçirilməsində təlim-tərbiyə işləri üzrə direktor müavini, sinifdənxaric, məktəbdənkənar işlər üzrə direktor müavini, sinif rəhbərləri, məktəb psixoloqu UBT-nın məktəb rəhbərliyi ilə sıx əlaqəli şəkildə fəaliyyətlərini qurmalıdırlar. Bütün bunlara əməl edildiyi halda, təbii ki, məktəbdə təhsilin keyfiyyətinin artırılmasına nail olmaq olar".**

# Azərbaycanda zorakılıq qurbanı uşaq və qadınlar üçün dövlət sığınacaqları yoxdur...

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi - Elgün Səfərov:** "Qanunvericilikdə sığınacaqların yaradılması ilə bağlı müddəalar öz əksini tapıb"*

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - Fazil Talıblı:** "Bu məsələ nazirliyin diqqətindədir"*

***Mehriban Zeynalova:** "Ölkəmizdə dövlət sığınacaqlarının yaradılmasına ehtiyac var"*

***Aytəkin Kamranqızı:** "Gələcəkdə dövlət sığınacaq mərkəzləri yaradılarsa, o qurum beynəlxalq standartlara cavab verməlidir"*

**Məişət zorakılığına məruz qalmış qadınlara ilkin yardımın edilməsi vacib amillərdəndir. Qadın uşaqlarla təkbaşına qaldıqda və ya evdən qovulanda ona dost-tanışı və ya doğmaları tərəfindən yardım edilə bilər. Ancaq elə ailələr var ki, o, məişət zorakılığına məruz qalsa da, müxtəlif səbəblərdən doğmalarının evinə gedə bilmir. Belə olan halda, həmin qadın ya yoldaşının zorakılığına dözmək məcburiyyətində qalır, ya da həyatına son qoyur.**



Bu kimi halların yaşanmaması üçün sığınacaq mərkəzləri mövcuddur. Ölkədə sığınacaq mərkəzləri mövcud olsa da, onların sayı yetərincə deyil. Yalnız bir neçə vətəndaş cəmiyyəti təsisatının nəzdində sığınacaq mövcuddur. Təbii ki, həmin sığınacaqlarda da zorakılığa məruz qalan şəxs uzun müddət saxlana bilmir. Həm də onların şəraiti buna imkan vermir. Bəzi hallarda qeyri-dövlət yardım mərkəzləri öz fəaliyyətlərini davamlı olaraq təşkil edə bilmirlər. Əsas problem də onların maliyyələşdirilməsi ilə bağlı olur.

Xatırladaq ki, 2010-cu ildə ölkə başçısı İlham Əliyev tərəfindən məişət zorakılığının qarşısının alınması ilə bağlı qanun imzalanıb. Bu illər ərzində bəzi işlər görülüb. Bu qanuna sığınacaqların yaradılması və idarə olunması da daxildir.

Ancaq dövlət sığınacaq mərkəzləri olarsa, bu sahədə hər hansı bir problem yaşanmaz. Zorakılığa məruz qalan şəxs rahat şəkildə dövlət sığınacaq mərkəzinə sığınıb, dövlərin onun üçün yaratdığı şəraitdən yararlanar.

Dövlət sığınacaq mərkəzlərinin nə səbəbdən yaradılmadığını öyrənmək üçün aidiyyəti qurumlara müraciət etdik. **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov bildirdi ki, müasir dövrdə dövlət sığınacaqlarının yaradılmasına ehtiyac var:** "Dövlət sığınacaqlarının yaradılmasının əsas məqsədi zorakılığa məruz qalan, eləcə də müxtəlif səbəblərdən oraya yerləşdirilən vətəndaşlara yüksək keyfiyyətli xidmətin göstərilməsidir. Bu, Azərbaycanda aktual problemlərdən biridir. İstər evdə, istər məktəbdə, istərsə də kənar yerlərdə məişət zorakılığına məruz qalan uşaqlar tam təhlükəsiz və keyfiyyətli xidməti göstəricilərə malik olan sığınacaqlara yerləşdirilməlidirlər. Bunun üçün də dövlət büdcəsindən maliyyələşən sığınacaqlara ehtiyac var. Bu sığınacaq cinsindən, yaşından asılı olmayaraq, zorakılığa məruz qalan bütün şəxslərin təhlükəsiz evinə çevrilməlidir".

Şöbə müdiri onu da vurğuladı ki, dövlət sığınacaqları yerli icra hakimiyyətlərinin və yaxud da digər dövlət qurumlarının nəzdində beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərə bilər: "İl ərzində məişət zorakılığı kimi qeydə alınan 850 hadisədə zərərçəkənlərin 50-60 faizinin sığınacağa yerləşdirilməsinə ehtiyac yaranır. Onların sığınacaqda formalaşması və gələcəkdə cəmiyyətə inteqrasiyaları üçün müvafiq tədbirlərin həyata keçirilməsi zəruridir. Qanunvericilikdə sığınacaqların yaradılması ilə bağlı müddəalar öz əksini tapıb. Ona görə də Azərbaycanda dövlət sığınacaqlarının yaradılması prioritet məsələlərdən biri olmalıdır".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat katibi Fazil Talıblının sözlərinə görə, bu məsələ nazirliyin diqqətindədir və yaxın zamanlarda bu barədə ictimaiyyətə geniş məlumat veriləcək.

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, sığınacaqların tikilməsi yaxşı haldır.** Bir sıra ölkələrdə dövlət sığınacaqları mövcuddur: "Ölkəmizdə dövlət sığınacaqlarının yaradılmasına ehtiyac var. Bu gün ölkədə sığınacaq sayı azdır. QHT-lər tərəfindən yaradılmış sığınacaqlar var. Bu sığınacaqlara məişət zorakılığından əziyyət çəkənlər gəlir. Ümumiyyətlə, hər xırda konfliktə görə sığınacağa gəlmək düzgün deyil".

M.Zeynalova hesab edir ki, eyni formatlı sığınacaqlar yaradılmamalıdır: "Azərbaycan mühiti üçün düşünmə evlərinin yaradılmasına ehtiyac var. Əgər orada təqib yoxdursa, sadəcə başqa şəxslərin müdaxiləsi ilə ailədə problem yaranıbsa, həmin düşünmə mərkəzində mütəxəssisin köməkliyi ilə o şəxs öz həyatına yenidən baxa bilər, ailə münasibətlərində baş verən hadisələrin təhlili üçün imkan yaranar. Təhlükəsiz sığınacaq isə dövlət sığınacağı olmalıdır. Düzdür, vətəndaş cəmiyyəti olaraq bizdə təhlükəsizlik tədbirləri üçün şərait yaradılıb. Ancaq böyük təhlükələr üçün dövlət sığınacaqlarının yaradılması vacibdir".

**Sosioloq Aytəkin Kamranqızı bizimlə söhbətində qeyd etdi ki, dövlət sığınacaq mərkəzlərinin yaradılmasına ehtiyac var.** Bu gün məişət zorakılığından əziyyət çəkənlərin sayı az deyil. Onların arasında elələri var ki, QHT-lər tərəfindən yaradılmış sığınacaq mərkəzlərindən xəbərləri yoxdur, ya da həmin mərkəzlərin dövlət nəzarətində olmadığını bildiyi üçün, ora getməyə ehtiyat edirlər. Bu səbəbdən dövlət sığınacaq mərkəzlərinin yaradılmasına ehtiyac var: "Hansısa zorakılığa, şiddətə məruz qalan biçarələr, ən azı, küçələrdə qalmaz, pis yollara düşməz, ölkədən getməz, intihar etməzlər. İnsan əlacsız, ümidsiz qaldıqda, döyəcəyi qapı olmadıqda, təhlükəli addımlar ata bilər. Əgər belə sığınacaqlar fəaliyyət göstərərsə, o da mümkündür ki, köməksiz şəxs daimi sığınacağın sakini olmasın; müəyyən bir müddətdə özünü toparlayandan sonra geriyə qayıtmaq imkanı qazansın".

Həmsöhbətimiz hesab edir ki, gələcəkdə dövlət sığınacaq mərkəzləri yaradılarsa, o qurum beynəlxalq standartlara cavab verməlidir: "Həmin mərkəzdə psixoloq, sosioloq, təlim-tərbiyə üzrə mütəxəssislərin fəaliyyəti, rolu çox vacibdir. Zorakılıq qurbanlarının normal həyata adaptasiyası üçün müxtəlif layihələr həyata keçirilməlidir".

A.Kamranqızı onu da vurğuladı ki, gələcəkdə yaradılacaq dövlət sığınacaq mərkəzləri tək paytaxt Bakıda deyil, bölgələrdə də fəaliyyət göstərməlidirlər. Nəzərə almaq lazımdır ki, bəzi şəxslər rayondan Bakıya gələ bilmirlər. Bu cür şəxsləri də nəzərə alıb bölgələrdə də dövlət sığınacaq mərkəzi yaradılmalıdır.

***Günel CƏLİLOVA***

# Pirşağı camaatı dənizə çirkab axıdanlara qarşı ayağa qalxdı

***Anar Cəbrayıllı:** "Pirşağı qəsəbəsi ilə bağlı xüsusi layihə var, layihəyə əsasən, Corat və Novxanı çimərliyində olduğu kimi, burada da çirkab suları təmizlənərək dənizə axıdılacaq"*

***Rasif Bağırov:** "Kanalizasiyanın dənizə axıdılması insan orqanizmində bir çox xəstəlik yarada bilər"*

**Dənizkənarı ərazidə yaşayan insanların üzləşdiyi problemlərdən biri də üfunət qoxusudur. Çirkli suların dənizə axıdılması həm həmin ərazidə üfunətli iyinin yayılmasına səbəb olur, həm də çirkli suyun dənizə axıdılması bir sıra xəstəliklərin yayılmasına səbəb olur.**



Bu hal ən çox Bakının Pirşağı qəsəbəsində də qeydə alınır. Qəsəbə sakinləri bildirirlər ki, çirkab suları dənizə axıdılır. Sakinlər özü ilə bərəabər üfunətli qoxunu və xəstəlikləri də dənizə daşıyan bu suyun illərdir dənizə axıdıldığını iddia edirlər.

Nəzərə almaq lazımdır ki, yay vaxtı ən çox üz tutulan yerlərdən biri də məhz Qızılqum çimərliyidir. Ancaq indi bu çimərlik çirkab sularının toplandığı məkana çevrilib. Sakinlər bildirirlər ki, yay fəslində çirkab sularının iyindən çimərlik ərazisindən istifadə etmək mümkün olmur.

Qeyd edək ki, inkişaf etmiş ölkələrdə çirkli sular üçün xüsusi yerlər nəzərdə tutulub. Həmin yerə axıdılan kanalizasiya sularındakı infeksiyalar zərərsizləşdiriləndən sonra həmin sular okeana, ya da dənizə axıdılır.

Ancaq bizdə isə çirkli sular birbaşa dənizə axıdılır. Nəzərə almaq lazımdır ki, qarşıdan yay fəsli gəlir və insanlar istirahət etmək üçün dənizə yollanacaq. Qeyd etdiyimi kimi, isti yay günlərində ən çox üz tutulan məkanlardan biri də Qızılqum çimərliyidir.

**Bakının Pirşağı qəsəbəsində çirkab sularının nə səbəbdən dənizə axıdılmasını öyrənmək üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə müraciət etdik. Cəmiyyətin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı bildirdi ki, sözügedən ərazi ilə bağlı xüsusi layihə var:** "Layihəyə əsasən, Corat və Novxanı çimərliyində olduğu kimi, burada da çirkab suları təmizlənərək dənizə axıdılacaq. Yeni yaradılan sistem ən son tələblərə cavab verəcək. Bununla da dənizə kanalizasiya və çirkab sularının axıdılması problemi birdəfəlik həll ediləcək".

**Çirkli suların dənizə axıdılmasının zərəri haqqında məlumat verən həkim-ekspert Rasif Bağırov bizimlə söhbətində qeyd etdi ki, bu gün Xəzər dənizinin suyu çox çirklidir və çimməyə yararsızdır:** "Bu fakt etiraf edilməlidir. Ən azından, kanalizasiya xətlərinin Xəzərə axıdılması və dənizin sahil qumunun suya yaxın hissəsinin çirkli olması dənizin suyunu daha da çirkləndirir".

Həmsöhbətimizin sözlərinə görə, sahil suları da mikroorqanizmlərin yaranmasına səbəb olur. Bura mədə-bağırsaq və dəri xəstəliklərinin mənbəyidir: "Bəzən insanların immunitetinin möhkəm olması onları infeksiyaya yoluxmaqdan qoruyur. Amma dəniz suyunda belə infeksion xəstəliklər kifayət qədərdir".

R.Bağırov bildirdi ki, kanalizasiyanın dənizə axıdılması insan orqanizmində bir çox xəstəlik yarada bilər. Çirkli su ağıza keçərək mədə-bağırsaqda infeksiyanın yaranmasına səbəb ola bilər: "Bu özünü qusma və qızdırma ilə büruzə verir. Nəinki mədə-bağırsaq infeksiyası, həmçinin, insan dəri ilə də tənəffüs etdiyi üçün dəri infeksiyaları ilə də qarşılaşa bilər. İnfeksiya baş verərkən laqeyd yanaşılarsa, bu, xroniki hala keçə bilər. Əgər infeksiya 14-20 günə sağalırdısa, xroniki halın sağalması uzun müddət çəkəcək. Ona görə də uşaqlı-böyüklü hər kəs diqqətli olmalıdır".

***Günel CƏLİLOVA***

№ 74 (3972) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

25 APREL 2019-cu il



## TƏBRİK!

Gözəlliyi bir aləm,
Şəhla şirin baladı.
Üç yaşına çatıbdı,
Yanaqları lalədi.

Gül-çiçəklə oynayır,
Elə bil kəpənəkdi.
Çiçəklərin içində
Ən ətirli çiçəkdi.

Nazı sığmır dünyaya,
Atanın sevincidi.
Tanrı qorusun onu,
Çox qiymətli incidi.

Bu gün "Bakı-Xəbər" qəzetinin baş redaktor müavini Tahir Tağıyevin bircə qızı, gözünün nuru, işığı Şəhla balanın ad günüdür. Üç yaşı tamam olan Şəhlanın dünyaya gəlişi ata-anasına, nənə-babasına Allahın ən qiymətli hədiyyəsidir. Şəhlanı ad günü münasibətilə Tahir bəy, anası Jalə xanım, nənələri, babaları, əmiləri, dayıları, əmisi uşaqları Turqut, Günel, Zöhrə və Ərkinaz, bibisi uşaqları Pərviz, Əyyub və Ömər, dayısı oğlu Ələddin ürəkdən təbrik edir, ona cansağlığı, uzun ömür, xoşbəxt və firavan həyat arzulayırlar.

Bu təbrikə "Bakı-Xəbər" ailəsi də qoşulur.

**Ad günün mübarək, Şəhla bala!**

## Elan

Abdullayev Sakit Əmiraslan oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən 16 iyul 2012-ci il tarixində verilmiş №259 qərar itdiyi üçün etibarsız sayılır.

Kazımova Səlbi Mirağa qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat pr-ti, məhəllə 501, ev 6A mənzil 13 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

"SABA-M" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Hacıyev Məmmədağa Ağarəhim oğlunun adına, Bakı şəhəri, Nardaran qəsəbəsi 837 a ünvanında yerləşən torpağın № 25631 müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Xəyyam Qalib oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Ağabəyova Solmaz Məmmədhəsən qızının adına, Bakı şəhəri, Yasamal rayonu, (keçmiş Musabəyov 56) Şərifzadə küçəsi, ev 130, mənzil 23 ünvanının orderi (№ 04159) itdiyi üçün etibarsız sayılır.

Süleymanova Gülnar Sadiq qızına Anadolu Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Orucov Hacı Abrek oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 40, giriş 3, mənzil 127 ünvanının çıxarışı (seriya RX № 1433592) itdiyi üçün etibarsız sayılır.

Məmmədova Ləman Şıxkərim qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən ünvana Binəqədi bələdiyyəsi tərəfindən verilmiş sərəncam itdiyi üçün etibarsız sayılır.

## Sem Smitin Bakı konserti gözlənilməz səbəbdən ləğv olundu

**Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) böyük təəssüflə bildirir ki, Sem Smit yarış həftəsonu, şənbə günü Bakıda konsert proqramı ilə çıxış edə bilməyəcək.**

Ötən həftə Cənubi Afrika turunu yarıda kəsən britaniyalı müğənni konsert proqramlarına qısa fasilə verdikdən sonra tibb mütəxəssislərinin məsləhətinə əsasən növbəti konsert proqramlarını da ləğv etməli olub.

Nəticə etibarilə, Sem Smit bu həftə Bakıda çıxış edə bilməyəcək. Sağlamlığı hər şeydən vacib sayan BŞH musiqiçinin tam sağalması üçün atdığı bu addımı anlayışla qarşılayır və onu dəstəkləyir.

Onu da yaxşı başa düşürük ki, bu xəbər Sem Smitin Bakıdakı azarkeşlərini məyus edəcək. Buna görə də bildirmək istərdik ki, Formula 1 SOCAR Azərbaycan Qran Prisininin hər bir tamaşaçısının möhtəşəm həftəsonu yaşamağını təmin etmək üçün təklif etdiyimiz digər əyləncə proqramları hələ də qüvvədədir.

Sem Smitə şəfalar diləyir və onu tezliklə Bakıda görməyi arzulayırıq.

## Makedoniyalı İskəndərin itmiş gəmisi tapıldı



**Livanlı dalğıclar qədim Finikya şəhəri Tirin yerləşdiyi buxtada yeni kəşfə imza atıblar.**

"Ölkə.az" bildirir ki, buxtada 11 batmış trier (gəmi) aşkar edilib. Dalğıc qrupunun rəhbəri Məhəmməd Saruci bəyan edib ki, gəmilər Makedoniyalı İskəndərin donanmasına məxsus olub. Eramızdan əvvəl 332-ci ildə İskəndərin donanması Tir şəhərini mühasirəyə almışdı. Amma güclü fırtına nəticəsində bir neçə gəmi suyun dibinə getmişdi. Cənubi Livanın qədim Abidələr Departamentindən isə bildirilib ki, gəmilər Finikiya gəmiləri ola bilər və başqa dövrə mövcudluğu ehtimal edilir. Hazırda araşdırma aparılır və gəmilərin həqiqətən də Makedoniyalı İskəndərin donanmasına aid olub-olmadığı dəqiqləşdirilir.

## Frankofoniya həftələrinin yekun konserti "Bakcell"in dəstəyilə keçirilib

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti Frankofoniya həftələrinin yekunu olan "Quoi? O?? Quand?" adlı konsert proqramının keçirilməsinə dəstək göstərib.**

Konsert Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin (UFAZ) tələbələrinin iştirakı ilə keçirilib. Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Fransanın Azərbaycandakı səfiri Orelia Buşez, Yunanıstanın Azərbaycandakı səfiri Nikolaos Kanellos, Belçika Krallığının Azərbaycandakı səfiri Bert Şufs, "Bakcell" şirkətinin və Fransız Mədəniyyət İnstitutunun nümayəndələri, həmçinin, UFAZ-ın professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti (UFAZ) ölkənin ən nüfuzlu təhsil ocaqlarından biridir. Frankofoniya günləri və digər tədbirlərin təşkili vasitəsilə UFAZ fransız dili və mədəniyyətini təşviq edir və tələbələrin bədiilik və musiqi bacarıqlarının artırılmasına öz töhfəsini verir. "Bakcell" şirkəti tədbirin sponsoru olaraq Azərbaycan tələbələri və gənclərinə xüsusi diqqət ayırmaqla ölkədə təhsilin inkişafına öz dəstəyini əsirgəmir.





**Qoç** - Situasiyanın təfərrüatlarını aydınlaşdırın. Rəqibləri geridə qoymaq üçün sürətli, çevik və qıvraq olun. Qarşınıza konkret məqsəd qoysanız, bir sıra problemləri çətinlik çəkmədən həll edə bilərsiniz.



**Buğa** - Günün ilk yarısından etibarən fəaliyyətinizə kənar təsirlər olacaq. Bir sıra amilləri mütləq şəkildə nəzərə almalısınız. Mütəhərrik olun, çevik davranın. Eyni vaxtda bir neçə işlə məşğul olmalısınız.



**Əkizlər** - Mühüm işlərdə bilavasitə iştirak edin. Maraqsız təsir bağışlayan prosesdən kənarlaşın, fəaliyyət istiqamətini dəyişin. Ümumi fon əlverişli təsir bağışlasa da, strateji səhvlər istisna deyil.



**Xərçəng** - Günün ilk yarısından etibarən fəaliyyət rejimi vəziyyətdən asılıdır. Formalaşan şəraitin nüanslarını nəzərdən qaçırmayın. Yeni təəssüratlara, maraqlı ünsiyyətə, variantların müqayisəsinə ehtiyac duyulur.



**Şir** - Yaxın gələcəklə bağlı planlar qurarkən tələskənliyə yol verməyin. İndinin özündəki vəziyyət tam aydın deyilsə, qərarlar çiy və natamam təsir bağışlaya bilər. Axşam saatlarında stressdən qurtulmağın yollarını arayın.



**Qız** - İstənilən işin effektivliyi sizin şübhə səviyyənizdən asılıdır. Bir variantı seçin, onu reallaşdırmaq üçün bütün imkanlardan yararlanın. Sizin haqqınızda kimin nə fikirləşəcəyini uzun müddət təhlil etməyin.



**Tərəzi** - Günün ilk yarısından etibarən işlərinizdə ciddi manеələr və sədlər yaranmayacaq. Həlli mümkünsüz təsir bağışlayan problemlər yoxdur. Qərarların bir çoxunu intuitiv qəbul etməlisiniz.



**Əqrəb** - Cari işlərdə ləngimələrə yol verməyin. Təşəbbüskar olun, situasiya sizə qərarlarınızı və addımlarınızı diqtə etməməlidir. Təəssüratlarınız bol, əsəbləriniz tarımdırsa, sakitləşin. Təmkinli olsanız, daha ciddi uğurlara nail ola bilərsiniz.



**Oxatan** - Birgə fəaliyyət, fikir mübadiləsi önəmli məsələlərdir. Problemləriniz və çətinliklərinizlə bağlı inandığınız insana, tərəfdaşa xəbər verə bilərsiniz. Mənasız söhbətlərə qatılmayın. İlk baxışda yaranan təəssürat sizi yanıltmasın.



**Oğlaq** - Səhər saatlarından etibarən işlərinizdə aktiv olun. Ani çətinliklər sizi yolunuzdan sapdırmasın. Məqsədə çatmaq üçün əzmlə çalışın, irəliləyişlərə nail olun. Xırdalıqlara və təfərrüatlara diqqət yetirin.



**Dolça** - Günün ilk yarısındakı proseslərdə harmoniya müşahidə olunur. Həddən artıq mürəkkəb layihəyə başlamaq məsləhət deyil. Nə ilə məşğul olacağınızı bilmirsinizsə, intuisiyanıza güvənin.



**Balıqlar** - Problemlərin birmənalı həllərini arayırsınızsa, məhsuldar zaman deyil. Yaşanan situasiyalar qarışıqdır. Etibarsızlıq, nigaranlıq hissləri yarana bilər. Belə şəraitdə səhvlər, qəribə qərarlar riski artır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Eşşək boyuna görə rekordlar kitabına düşə bilər



**Britaniyanın Linkolşir qraflığındakı qoruqda yaşayan "Derrik" adlı eşşək öz həmcinsləri arasında ən böyük olduğuna görə rekordlar kitabına düşə bilər.**

Onun boyu 170 santimetrdir, lakin bu rəqəmin artmaq ehtimalı çoxdur. Çünki, "Derrik" hələ 5 yaşındadır. Eşşəklərin boy artımı isə 7 yaşa qədər davam edir. "Derrik həmcinsləri arasında" Ginnesin Rekordlar Kitabına adı yazılmış "Romulus"dan 3 santimetr geri qalır. Lakin qoruq sahibləri əmindirlər ki, "Darrik"in boyu tezliklə "Romulus"dan daha uca olacaq.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.